

## Tarixi irsimiz, milli sərvətimiz - İçərişəhər

5

# Prezidentdən xəbərdarlıq: “Bakı şəhərində yöndəmsiz, qanunsuz tikililərə son qoyulmalıdır!”

*Prezident İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



2




# Səs

№ 041 (6482) **4 mart** 2022-ci il. **Qiymətı 60 qəpik**




13

## Üçüncü Dünya Müharibəsi başlayır?

“Ukrayna-Rusiya müharibəsi gözlənildiyindən daha geniş miqyas aldı. Zaman baxımından da Rusiya tərəfindən belə fikirlər...

# USAİD-in Azərbaycan əleyhinə növbəti fırıldağı!

SENSASİON FAKTLAR+İLK DƏFƏ!





8

# MEDİA-da

## yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib

Mart ayının 3-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində çap mediası məhsullarının yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, Medianın İnkişafı...



6

## Paşinyan ağıllanır, yoxsa..?

14



## “Messini pula görə göndərdilər!”

ŞOK AÇIQLAMA:



16



## Kişilər niyə qadınlardan az yaşayır?

11

Şərtlərdən asılı olmayaraq, bu günə qədər kişilərin qadınlardan ”az” yaşadığı elmi həqiqətdir. Bəs kişilərin...



## Gənc ailələr ipoteka kreditindən niyə istifadə edə bilmir?

16

“Azərbaycanda gənc ailələrin mənzil təminatının həll edilməsi prioritet məsələlərdəndir. Nəzərə alsaq ki, Güzəştli Mənzil...

## Prezidentdən xəbərdarlıq:

# “Bakı şəhərində yöndəmsiz, qanunsuz tikililərə son qoyulmalıdır!”

*Prezident İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şahin Seyidzadəni ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.**



## *Prezident İlham Əliyev:*

### *Müasir memarlıq Bakının qədim tarixi simasını pozmamalıdır*

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq: ”İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz.

İçərişəhər Bakı şəhərinin özəyidir. Bakı şəhərini İçərişəhərsiz təsəvvür etmək mümkün deyil. Ancaq inzibati bölgü nöqteyi-nəzərdən mənim Sərəncamımla bir neçə il bundan əvvəl İçərişəhərdə xüsusi idarəetmə mexanizmi yaradılmışdır, idarə yaradılmışdır. İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər, sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi. Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var. Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər.

Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır. Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır - Bakı Şəhər İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək.

## *"Bakı bundan sonra daha da gözəl şəhər olacaq"*

Ancaq yenə də deyirəm, son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı. Bu gün bir daha demək istəyirəm, Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik - Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq.”

Dövlətimizin başçısı qeyd edib ki, Bakının inkişafı və idarəetmə prinsipləri başqa şəhərlərdən fərqlənir: ”Qeyd etdiyim kimi, mənim Sərəncamımla vaxtilə ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bulvar İdarəsi yaradılmışdır. Bulvar da Bakının bir hissəsidir, ancaq ayrıca bir inzibati vahididir. Nə üçün? Çünki bulvar da bizim milli sərvətimizdir və indi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi - qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni, Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar, - üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan - ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür. Bax, bu amillər çox önəmlidir. Ona görə siz də təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar - istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin.

Bir daha demək istəyirəm ki, sizin üzərinizə böyük vəzifə düşür. Bir daha demək istəyirəm ki, İçərişəhər bizim milli sərvətimizdir, bu sərvəti biz qorumalıyıq və qoruyacağıq. Sizə işinizdə uğurlar arzulayıram.

Şahin Seyidzadə: Cənab Prezident, etimad göstərdiyiniz üçün Sizə təşəkkür edirəm.

# "Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlıq uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədrini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlinin səfərinin səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə sıx qarşılıqlı fəaliyyət həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı özünün Tacikistan Prezidenti Emoməli Rəhmonla təmaslarının və qarşılıqlı dəstəyin önəmini qeyd etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirdi, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğunu vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməli, ilk növbədə, Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Rüstəm Emoməli parlamentlərimiz arasında əməkdaşlıq haqqında sazişin, həmçinin Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanacağını qeyd edərək, bunları dostluq əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev Tacikistanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Emoməli Rəhmona çatdırmağı xahiş etdi.



# Azərbaycan və Moldova prezidentləri arasında telefon danışığı olub

Martın 3-də Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Telefon söhbəti zamanı regional məsələlər barədə fikir mübadiləsi aparılıb, həmçinin Azərbaycan ilə Moldova arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# İtaliya mətbuatı Senatda Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı keçirilmiş konfransdan yazıb

**Xocalı soyqırımının 30-cu ildönümü çərçivəsində İtaliya Senatının "Caduti di Nassirya" mətbuat konfransı zalında "Etiraf yolu ilə barışıq: sülh quruculuğu və keçid ədaləti" mövzusunda keçirilmiş konfrans yerli mətbuatın geniş diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, İtaliya Senatının rəsmi televiziyası və yutub kanalı vasitəsilə canlı yayımlanan konfransın tam videosu İtaliyanın "Radio Radicale" radiosunun internet səhifəsində yerləşdirilib. "Agenzia Nova" xəbər agentliyi və "Kmetro0", "Notizie Geopolitiche" kimi analitik və xəbər portallarında tədbirlə bağlı yazılar dərc edilib.

"Askanews" xəbər agentliyinin konfransla bağlı hazırladığı videoreportaj İtaliyanın çoxsaylı nüfuzlu kütləvi informasiya vasitələri, o cümlədən "il Sole 24 Ore", "il Tempo", "Libero Quotidiano" kimi qəzetləri, habelə "Affari Italiani", "il Dolomiti", "Notizie Yahoo", "Notizie Tiscali", "Virgilio", "Today.it", "Notizie.it", "MSN", "Quotidiano Nazionale", "Timgate", "Socialboost", "Dailymotion", "Vistosulweb", "Gruppo Corriere", "Corriere di Siena" kimi analitik və xəbər portalları tərəfindən də yayılıb.







Məlumatlarda konfransın İtaliya Senatının "İrəli, İtaliya" partiyasından olan üzvü, İtaliyanın Mərkəzi Avropa Təşəbbüsü Parlament Assambleyasındakı parlament nümayəndə heyətinin vitse-prezidenti, senator Urania Papatheunun təşəbbüsü ilə İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsi ilə birgə təşkil olunduğu bildirilib. Yazılarda senator U.Papatheunun, İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, deputat Rossana Boldinin, İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsinin sədri professor Antonio Stanqonun, Avropa Müsəlmanlarının Sosial Birlik Təşəbbüsünün baş katibi, Danimarka İnsan Hüquqları İnstitutu şurasının üzvü Başi Qureyşinin, Vicdan azadlığı Uğrunda Dərnəklərin və Fərdlərin Koordinasiyasının prezidenti Tyeri Vallenin və Bursa Uludağ Universiteti rektorunun müşaviri, universitetin beynəlxalq akademik münasibətlər üzrə əlaqələndiricisi, ATƏT-in keçmiş şəxsi nümayəndəsi, din və geosiyasət üzrə professor Bülent Şenayın tədbirdə səsləndirdikləri fikirlərə yer verilib.

Konfransla bağlı yayılmış məlumatlarda Xocalı soyqırımının acı nəticələri barədə ətraflı məlumatlar verilib, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməsinə baxmayaraq ,Xocalıya ədalətin hələ tam bərpa olunmadığı, tədbirin məqsədinin etiraf, dialoq və barışıq yolu ilə insanlara Xocalı faciəsinin kölgəsini aradan qaldırmağa kömək etmək üçün güclü beynəlxalq vasitəçiliyi araşdırmaq olduğu qeyd edilib. Bu xüsusda, yazılarda "Barışıq üçün etiraf et" təşəbbüsünün əhəmiyyəti və təşəbbüsün Xocalı soyqırımının Ermənistan tərəfindən etirafı, azərbaycanlılarla ermənilər arasında birbaşa dialoqa yardım edilməsi, münaqişə ilə bağlı acı xatirələri aradan qaldıraraq birlikdə Cənubi Qafqazda barışıq və dayanıqlı sülh yollarının tapılması kimi məqsədlərinə nail olmaq üçün Xocalı faciəsinin 30-cu ildönümü ili ərzində davamlı olaraq fəaliyyət göstərilləcəyi qeyd olunub.

Yazılarda konfransın sonunda "Barışıq üçün etiraf et" təşəbbüsünü dəstəkləyən Avropa təşkilatlarının koalisiyasının elan edildiyi, habelə çıxışçılar, tədbirdə iştirak edən bir sıra italyan parlamentarilərin və digər iştirakçıların rəmzi olaraq Roma Bəyannaməsi adlanan "Barışıq üçün etiraf et" təşəbbüsünün beynəlxalq koalisiyası Bəyannaməsini imzaladıqları bildirilib.

# Rusiya-Ukrayna müharibəsinin Ermənistana mənfi təsirləri

**Rusiya ilə Ukraynanın apardığı müharibə əlbəttə ki, hər iki ölkə üçün arzuolunmaz itgilərlə, zərərlə davam etdirilir. Hər iki tərəfin itgiləri var və bunun hələ nə qədər davam edəcəyini də söyləmək çətindir. Bununla yanaşı, bu müharibə yalnız tərəflərə zərər vurmur. İki ölkə arasında baş verən toqquşmalara görə Avropa ölkələri belə zərər çəkməkdədir. İndi Rusiyanın sanksiyalara məruiz qaldığı kimi, Avropa da, təbii qaz məsələsində Rusiyanın tətbiq etdiyi müəyyən məhdudiyyətlərlə üzləşib və bu müharibə Avropa üçün də itgilərə səbəb olub, hələ də itgilər artmaqdadır.**




Doğrudur, Avropa ölkələri Rusiya ilə Ukrayna arasında baş verən toqquşma səbəbindən zərər görür, amma bu zərər heç də Ermənistan kimi işğalçı və asılı ölkənin zərəri ilə müqaisə edilən deyil. Əgər Avropa ölkələri təkcə iqtisadi çətinliklərlə, iqtisadi zərərlə, ehtiyacla üzləşiblərsə, Ermənistana bütün istiqamətlərdə zərər deyməkdədir. Eyni zamanda güclü, qüdrətli Avropa ölkəri belə çətinliklərə tab gətirəcəyi bəllidir, amma Ermənistan kimi cılız bir dövlət, səfalət işərisində boğulan bir ölkə bu təsirlərdən hansı vəziyyətə düşəcəyi sözsüz ki, hələ bəlli deyil.

Ukrayna münaqişəsi Ermənistan və ermənilər üçün təkcə iqtisadi problemlər deyil, həm də siyasi və digər problemlər, çətinliklər yaradır. Doğrudur, müharibə həmişə, hər həs üçün, hamı üçün pisdir, arzuolunmazdır, amma Ermənistanın və ermənilərin timsalında kimin üçün isə daha dəhşətlidir. Rus hərbçilərinin inzibati binaları, yaşayış binalarını, teleqülləni vurması fonunda Ukraynada baş verənlər çox acınacaqlıdır. Rusiya üçün də vəziyyət xoşagələn deyil. Rusiya işçi qüvvəsi, hərbi texnika, iqtisadiyyat və reputasiya itkilərinə məruz qalır. Məsələ burasındadır ki, bir sıra məqamlara nəzər salsaq görərik ki, ermənilərin, Ermənistanın itgisi də nəzərəçarpacaq qədərdir.

Rusiya-Ukrayna müharibəsi Ermənistan üçün sözün əsl mənasında bir problemdir və bunun bir neçə səbəbi var. Əvvəla, müharibə bu ölkələrdəki erməni diasporuna təsirsiz ötüşməyəcək. Ancaq diasporun fəaliyyəti sayəsində ayaqda qalan Ermənistan üçün bunun nə demək olduğu yəqin ki, hər kəs üçün aydın olar. Qarabağa göndərilməmələri, ümumiyyətlə hərbi xidmətdən yayındırılmaları üçün övladlarını Rusiyaya, Ukraynaya yollayan ermənilər əvvəllər gözləyirdilər ki, övladları bir il Rusiya ordusunda xidmət edəcək, sonra isə hərbi bilet alıb yaşayacaqlar, ölməyəcəklər. Bir çoxları da övladlarının öz ölkələrinə qayıtmayıb Rusiyada, Ukraynada yaşayacaqlarına ümid edirdilər. Ümid edirdilər ki, uşaqları Ermənistandan kənarda rahat yaşayacaqlar, qazanacaqlar, amma indi bu mənada nəinki ümidləri qırılıb, hətta qorxurlar ki, yoxsulluq fonunda və öz millətinin özünü tənha hiss etməsi fonunda ruslar şovinist hissləri gücləndirə bilər, xarici miqrantları, o cümlədən erməniləri aşağılayarlar. Bu vəziyyət Rusiya və Ukraynadakı erməni sahibkarlar üçün də pis günlərin başlağıcından xəbər verir. Eləcə də onların Ermənistandakı pul köçürmələri ilə yaşayan, yalnız bu köçürmələrə ümid bəsləyən qohumları əziyyət çəkəcəklər. Bir sözlə, bu müharibə Ermənistanda yaşayan ermənilərin onsuz da ağır olan yaşayış şəraitinə daha bir zərbə olaraq vəziyyəti çətinləşdirir.

Rusların həmişə onları qoruyacağına ümid edən ermənilərin ümidləri də tamamilə qırılıb. Çünki, indi erməniləri qorumaq Rusiyanın yadına belə düşməyəcəyini və Rusiyanın öz hayında olduğunu hamıdan yaxşı elə ermənilər özləri bilirlər. Yaxşı bilirlər ki, sanksiyalar səbəbindən ruslar özləri çətin vəziyyətdədirlər və belə vəziyyətdə hələ bir yardım haqqında düşünüləcəyi də inandırıcı görünə bilməz. Müharibə və sanksiyalar altında boğulan Rusiyanın zəifliyi özünü biruzə verdikcə isə ermənilərin ruslara güvəni də boşa çıxır. Bu da erməni cəmiyyətində ruh düşkünlüyü, bədbin əhvalruhiyyə ilə yanaşı, ümidsizlik də yaradır və nəticə etibarı ilə bunun Ermənistan üçün bütün sahələrdə mənfi təsirləri müşahidə edilir.

Eyni zamanda Rusiya ilə Ukrayna arasında gedən müharibə dünyanın diqqətini cəlb etdiyi zaman ermənilərin yalandan qara-qışqırıq salmalarına, hiyləgərliklə hay-küy qoparmasına məhəl qoyan da olmayacaq. Yəni, ermənilərin ciddi cəhdlə apardıqları yalançı təbliğat kampaiyası belə bu anda diqqətdən kənarda qalır və bundan sonra da qalacaq. Onsuz da bu cəhdlərindən başqa heç bir iş görmək iqtidarında olmayan işğalçı ölkənin demək olar ki, rolu, fəaliyyto sıfıra yaxınlaşır. Belə olan halda mövcud olmaları ilə olmamaları arasında fərq də müvafiq olaraq nəzərə çarpmır.

Onu da diqqətə çatdıraq ki, həmçinin ermənilərin bütün dünyadan umduqları gözlədikləri yardım da bu anda mənasızdır. Yəni, bütün dünya Ukrayna barədə düşündüyü zaman, yardımlar belə Ukraynaya edildiyi, yaxud yönləndirildiyi zaman Ermənistan heç kimin yadına düşən deyil. Nə dünya ölkələri, nə də beynəlxalq təşkilatlar ən azından bu müharibə fonunda erməni hayında ola bilməz. Hər birinin öz problemi olduğu halda yalançı, dırnaqarası ”erməni harayı” kimsə üçün eşidilən belə deyil.

Hərbi əsirlər məsələsi barədə də yalandan ”haray” çəkən ermənilər eşidən ola bilməz. Çünki, hazırda dünyanın diqqət mərkəzində olan Rusiya-Ukrayna müharibəsi fonunda hər iki tərəfdən minlərlə, rus və ukraynalı hərbi əsirlərin olması məsələsidir. Belə vəziyyətdə ermənilərin özlərinin iddia etdikləri 5-6 nəfər əsir bütün dünya ölkələrini, yaxud beynəlxalq təşkilatları məşğul etməyəcək. İndi ermənilər özləri də yaxşı bilirlər ki, nə qədər çığır-bağır salsalar belə mənasızdır və bunun onlar üçün heç bir faydası yoxdur, onların bir neçə əsir barədə dediklərini eşidən belə olmaz.

Həmçinin ermənilərin bəzi yollar barədə hay-küy qoparmalarına da məhəl qoyan tapılmayacaq. Bütün Avro-Atlantik məkanın sərhədlərinin Rusiya aviasiyası üçün bağlı qalması və buna uyğun olaraq Avropa aviaşirkətlərinin Rusiya üzərindən uça bilməməsi fonunda ermənilərin Qorus-Qafan yolunun timsalında hansısa yolların bağlanıldığı barədə iddiaları çətin ki, diqqəti cəlb edə. Bir sözlə, hazırda dünya ölkələri, beynəlxalq təşkilatlar, hətta ermənipərəst qüvvələr üçün belə prioritet məsələ məhz Rusiya-Ukrayna müharibəsinin hər sahədə mövcud təzahürləridir, Ermənistanın yalandan qaldırdığı məsələlər deyil. Bu baxımdan Ermənistan tərəfi çox yaxşı başa düşür ki, hər zaman ümid etdikləri şər, yalan və digər vasitələrə artıq ümid edə bilməzlər. Əksinə, indi Ermənistan bütün istiqamətlərdə daha acınacaqlı vəziyyətlə qarşılaşıb. Bir sözlə, Rusiya-Ukrayna müharibəsinin Ermənistana mənfi təsirlərini ermənilər özləri də yaxşı başa düşür, anlayır və etiraf belə edirlər, hansıki bu Ermənistanın mətbuat səhifələrində də öz əksini tapır.

***İnam Hacıyev***




## İşğaldan azad olunan ərazilərdən 159 mina aşkarlanıb

ANAMA işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlar barədə aylıq statistik məlumatları açıqlayıb. ANAMA-dan SİA-ya bildirilib ki, yanvarın 1-dən 28-nə qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 96 piyada əleyhinə mina, 63 tank əleyhinə mina və 601 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 379,6 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

## “İlk dəfədir ki, Ermənistan Rusiyaya qarşı çıxdı”

“BMT-nin insan hüquqları üzrə komitəsinin Cenevrədə keçirilən 49-cu sessiyasında Ukrayna ilə bağlı müzakirələr zamanı 49 dövlətdən 13 bitərəf mövqe sərgiləmiş, qalanları Rusiyanı ittiham edən qətnamənin lehinə səs vermişdir”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə, son bir neçə ildə birinci dəfədir ki, Ermənistan öz müttəfiqi olan Rusiyanı müdafiə etməmişdir: ”Məhz bu amil Paşinyan hökuməti ilə münasibətlərə dair Rusiya tərəfində ciddi narazılıq doğurmuşdur. Paşinyanın Ermənistanda Soros klanının dəstəyi ilə hakimiyyətə gəlməsi amili nəzərə alınarsa, ABŞ-ın indiki prezidenti Bayden və onun komandası ilə sıx münasibətlərə malik olan Paşinyanın Ermənistanda hakimiyyətə gəlməsini Kreml bu ölkədə və perspektivdə Cənubi Qafqaz bölgəsində onun maraqlarının lehinə olmayan geopolitik addım kimi dəyərləndirmişdir. Digər tərəfdən Paşinyan hakimiyyətinin bölgədə nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı Moskva sazişinin şərtlərini yerinə yetirməkdən boyun qaçırması Rusiyanı qane etmir. Hazırda MDB hüdudlarında Moskvanın nüfuz dairəsinin məhdudlaşdırılmasına yönəldilmiş Qərblə qarşıdurma şəraitində Paşinyan kimi siyasətçilər istənilən vaxt Qərbin xeyrinə demarş edə biləcək qüvvələr kimi qiymətləndirilir. Ermənistanda Rusiya ilə bağlı məlum qüvvələri də hazırda xeyli fəallaşıb və Paşinyan iqtidarına siyasi və sosial təzyiqlərin gücləndirilməsi Kreml tərəfindən olan sifarişlərlə bağlıdır. Rusiyanın MDB, o cümlədən, Ermənistan məkanında proseslərə təsir imkanlarının artıb, azalma faktoru əlbəttə Ukrayna ilə qarşıdurmada Rusiyanın qazanacağı və ya əksinə, itirə biləcəyi ilə bağlı proseslərdən asılı olacaq”.

***Gülyana***

# Tarixi irsimiz, milli sərvətimiz - İçərişəhər

*Prezident İlham Əliyev: "İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur"*




"İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq". Bu fikirləri Prezident İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib. "İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir", - deyən Cənab Prezident qeyd edib ki, dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Bəli, dünyada bənzəri olmayan İçərişəhər Bakının ən qədim hissəsi, eləcə də tarixi-memarlıq qoruğudur. Tarixi yaddaşımızın canlı şahidi olan İçərişəhər Bakının ən qədim hissəsidir və yaxşı qorunmuş qala divarları ilə əhatə olunub. "İçərişəhər Bakı şəhərinin özəyidir", - deyən Cənab Prezident Bakı şəhərini İçərişəhərsiz təsəvvür etməyin mümkün olmadığını bildirib: "Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər."

Buranın hər bir daşı neçə-neçə əsrləri yaşadır. Tarixdən boylanan səda daşlarda, küçələrdə həkk olunub. Hansı hadisələrə şahidlik etməyib İçərişəhərimiz? Üçqat qala divarları və Qız qalası möhtəşəm müdafiə istehkamının bu günümüzə gəlib çatan nişanələrdir. Burada küçələrin çox dar və dolanbac olması düşmən süvariləri küçə və dalanlara girə bilməsin deyə belə hörülmüşdür. Tunc dövründən bizə soraq verən ərazinin qədim tarixində neçə-neçə istilalar, vuruşmalar, müharibələr yer almışdır. İçərişəhəri çox vaxt şəhər içərisində şəhər adlandırırlar. Doğrudan da, qala darvazasından içəri ayaq qoyanda sanki başqa bir aləmə düşürsən - orta əsrlər şəhərinə. Buradakı üç abidə - Qız qalası, Şirvanşahlar Sarayı, Məhəmməd məscidi dünya, 28 abidə isə ölkə əhəmiyyətli abidələrdir.

## "BİZ İÇƏRİŞƏHƏRİ GÖZ BƏBƏYİMİZ KİMİ QORUMALIYIQ"

İçərişəhərdə yerləşən məşhur memarlıq abidələri - Qız qalası, Qala divarları, Şirvanşahlar Saray Kompleksi, Məhəmməd Məscidi, Multanı, Buxara və Kiçik Karvansaralar, məscidlər, karvansaralar, hamamlar, muzeylər və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur. Dövlət başçısının qeyd etdiyi kimi, "Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz."

Qız qalası və Şirvanşahlar Sarayı 2000-ci ildə UNESCO-nun Dünya Mədəni İrsi siyahısına daxil edilib.

Azərbaycan Böyük İpək yolunun üzərində yerləşdiyinə görə, İçərişəhərdə çoxlu karvansara və bazar meydanları vardı. Yaraşıqlı görkəmi ilə seçilən ikimərtəbəli Karvansara XV əsrə aiddir. Karvansara cənub-şərq tərəfdən künc qalalarla mühafizə olunur ki, bu da onun müdafiə xarakterindən xəbər verir.

## "BAKININ TƏMƏLİ MƏHZ İÇƏRİŞƏHƏRDƏ QOYULUBDUR"

İçərişəhərin üç əsas darvazası var - Şamaxı darvazası, Salyan darvazası və dəniz sahilinə açılan darvaza. Əsas girişlərdən biri Qoşa Qala qapısıdır ki, buna Şamaxı Darvazası deyilir. Qoşa Qala qapısından içəri daxil olan kimi geniş bir meydana çıxmış olursan. Sol tərəfində XVIII əsrin memarlıq abidəsi olan Bakı xanlarının iqamətgahının qalıqları görünür.

Məlumdur ki, dağıdıcı zəlzələdən sonra Şirvan hökmdarı Axsitan paytaxtı İçərişəhərə köçürdü. Şəhər böyüyüb genişləndi. Burda möhtəşəm bir saray - Bakının ecazkar tarixi abidələrindən olan - Şirvanşahlar sarayı tikildi. Bu saray İçərişəhərə xüsusi bir yaraşıq və əzəmət verir.

Tariximizin daha bir incisi, Bakının simvolu olan Qız qalası da İçərişəhərdədir. Əslində, İçərişəhərin tarixi daha qədimlərə, hətta eramızdan əvvələ gedib çıxır.

Bakının ən dəyərli incisi, həm də tarixi-memarlıq qoruğu olan İçərişəhər XIX əsrin sonları-XX əsrin əvvəlləri Bakıda neft bumunun yaşanmasından sonra genişlənir, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlayır. Məhz "İçərişəhər" anlayışı da bayır şəhərin formalaşmasından sonra yaranır.

"İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər, sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. "Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi" - deyə Cənab Prezident bildirib: "Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var. Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər".

## ŞƏHƏRİN TARİXİ SİMASININ QORUNMASI İSTİQAMƏTİNDƏ MƏQSƏDYÖNLÜ TƏDBİRLƏR HƏYATA KEÇİRİLİB

Qeyd etmək yerinə düşər ki, 17 fevral 2003-cü ildə Prezident Heydər Əliyev "Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamdan sonra burada tikinti işləri dayandırıldı və şəhərin tarixi simasının qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı. İçərişəhərin qorunması istiqamətində 10 fevral 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" Sərəncam imzaladı. Dövlət başçısının 16 may 2007-ci il Sərəncamı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsi təsdiq edildi. İdarənin yaradılmasının əsas məqsədi İçərişəhər ərazisindəki abidələrin və bütövlükdə memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanmasının və gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən unikal idarəetmə sisteminin təşkil olunması idi.

17 dekabr 2009-cu ildə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun inkişaf tədbirləri haqqında" Prezidentin Sərəncamına əsasən, İçəri Şəhərin ərazisində uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində, ənənəvi küçə şəbəkələri olduğu kimi saxlanılmaqla turizm infrastrukturu obyektlərinin qurulması, yaşayış binalarının təmiri və mühəndis kommunikasiyalarının dəyişdirilməsi, ərazidə abadlaşdırma işlərinin aparılması üçün vəsait ayrılmışdır.

İçəri Şəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi, bərpası və orada arxeoloji işlərin aparılması məsələləri də müvafiq normativ hüquqi aktların və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin tələblərinə uyğun şəkildə həll edilir. Mövcud qanunvericiliyə görə, Qoruğun ərazisində yerləşən elmi, tarixi və ya mədəni əhəmiyyətli bütün abidələr dövlət tərəfindən qorunur, onların dağıdılması, köçürülməsi və dəyişdirilməsi qadağan olunur. Hazırda İçəri Şəhərin qorunması, tədqiqi və təbliği ilə Qoruq İdarəsi məşğul olur. Hazırda İçərişəhərdə mövcud olan tarixi abidələr - dünya, ölkə və yerli əhəmiyyətli olmaqla 3 qismə bölünür.

## "MÜASİR MEMARLIQ BAKININ QƏDİMLİYİNİ, O QƏDİM TARİXİ SİMASINI POZMAMALIDIR"

Bakı dünyanın ən gözəl, unikal, inkişaf etmiş şəhərlərindən birinə çevrilib. Dövlət başçısı çıxışında Bakı şəhərinin bütövlükdə memarlıq ansamblının unikal olduğunu bildirib.: "Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var".

Əlbəttə ki, dövlətimiz tərəfindən görülən işlər şəhərin gözəlliyinə yeni çalarlar əlavə edib: "Son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı", - deyən Prezident diqqətə çatdırıb ki, hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə: "Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik - Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar - istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin".

**Nəzakət ƏLƏDDİNQIZI**

REPORTAJ

# 4 mart tarixində baş vermiş toqquşma

Hər dəfə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi təcavüzkar əməllərin mahiyyətinə nəzər salarkən 200 illik tarixi dövrdə törətdikləri təcavüzkar siyasət diqqəti çəkir və bu siyasətin arxasında utopiyadan yoğrulmuş məkrli niyyəti görmüş oluruq. Ərazi iddiası ilə tarixin müxtəlif dönəmlərində baş qaldıran erməni məzlum qiyafəsi ilə dünyaya özünü təqdim edərək imdad diləyib. Bu qiyafəni çıxarmağa cəsarəti çatmayıb və belə bir libasla əzilən bir "xalq" olduğunu göstərməyə çalışıb. Əslində, erməni kimdir, sualı yaranır. Özlərini "Hay", ölkələrini "Hayastan" adlandıran ermənilər İran, Türkiyə, Livan, Suriya kimi ölkələrdə məskunlaşmış bir "xalq"dır. 19-cu əsrə kimi əksəriyyəti Osmanlı imperiyası və İranda yaşayan ermənilər bu dövrdən sonra müxtəlif səbəblərdən dünya ölkələrinə səpələnib və bu səpələnmə nəticəsində dünyanın müxtəlif ölkələrində yaşayan erməni topluluqlarına erməni diasporu adı verilib. Erməni diasporunun ən güclü olduğu ölkələr isə ABŞ, Rusiya və Fransadır.



**Ağdərə toqquşması və ya Tərtər hərbi təxribatı adı ilə tariximizdə yer alan hadisədən 14 il ötür**

"Böyük Ermənistan " yaratmaq xülyası ilə Azərbaycan torpaqlarına qarşı ərazi iddiası ilə çıxış edən Ermənistan torpaqlarımıza hücum edib. Ötən əsrin sonlarında baş verən olaylar ermənilərin niyyətlərini bir daha ortaya qoymuş oldu. Məlum hadisələr zamanı Azərbaycanın ərazisini 20 faizi işğal olundu. Tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başlamışdır. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, 1991-1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olub. Ən çoxsaylı itkilər 1992-1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı baş verib. Birinci Qarabağ müharibəsi vaxtı cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan "Bişkek protokolu" imzalanmış və 1994-cü il mayın 12-də cəbhədə atəşkəsə nail olunmuşdur. Atəşkəs münaqişə tərəflərinin razılığı ilə hərbi əməliyyatların bütün cəbhə boyu və ya cəbhənin müəyyən bir hissəsində dayandırılmasına yönəlmişdi. Atəşkəs müharibə şəraitində olan ölkə və ya ölkələrdə silah-sursatla və eləcə də digər vasitələrlə vətəndaşların fərdi, kütləvi qətl edilməsi ilə müşahidə edilən daxili və xarici münaqişələri müvəqqəti və ya daimi dayandırmaq üçün münaqişə tərəflərinin birgə razılaşma qərarlarını ifadə edən rəsmi bəyanatdır.

## ERMƏNİSTANDAKI SEÇKİLƏRDƏN SONRA GÜNDƏMİ DƏYİŞDİRMƏYƏ ÇALIŞAN QANLI ƏMƏLLƏR

Amma atəşkəs elan olunsa da, Ermənisntan heç bir sənədə məhəl qoymadığı kimi, bu müqaviləyə də ciddi yanaşmadı. 1994-cü ildə Ermənistanla Azərbaycan arasında imzalanan atəşkəs müqaviləsindən sonra müxtəlif miqyaslı bir çox qarşılıqlı hücumlar baş vermişdir. Atəşkəs dövründə şəhid olan və yaralanan hərbçilərimizin sayı kifayət qədərdir. Bu, erməni terrorunun qanlı əməlləri olaraq tariximizdə yer alıb. Bunlardan ən böyüyü 2008-ci ildə Ermənistanda keçirilən prezident seçkilərindən dərhal sonra Ağdərədə baş verdi. 4 mart 2008-ci il tarixində Ermənistan və Azərbaycan arasında baş vermiş olan toqquşma ermənilərin təcavüzkarlığının daha bir nümunəsi olaraq tarixə düşmüşdü. Ağdərə toqquşması və ya Tərtər hərbi təxribatı adı ilə tariximizdə yer alan hadisədən 14 il ötür. Ermənistan diqqəti Ermənistandakı prezident seçkilərindən sonra martın 1-də baş vermiş insan haqları pozuntularından yayındırmaq üçün atəşkəsi pozmuşdur. Belə ki, Ermənistandakı seçkilərdən sonra gündəmi dəyişdirməyə çalışan erməni tərəfi, Azərbaycan ilə sərhəd bölgəsinə hücum edərək daha bir təxribata əl atmışdır və nəticədə bir neçə Azərbaycan əskəri şəhid olmuşdur. Əlbəttə ki, tariximizə nəzər salsaq, nə qədər belə hadisələrin, təxribatların törədildiyini görərik.

## GƏNCƏDƏ YAŞANILAN MATƏM

44 günlük Vətən müharibəsində biz ermənının vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi? İnsanlarda onların əməllərinə qarşı yaranan qəzəb və nifrət yaddaşlardan silinərmi? Bu, tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşayarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

## ERMƏNİSTANI DİZ ÇÖKDÜRƏN DƏMİR YUMRUQ

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində tariximizə yeni bir gün - Zəfər tarixi yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu əzəli torpaqlarımızı azadlığa qovuşdurdu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında dövlət başçısı Sərəncam imzaladı.

Artıq neçə illər idi ki, Azərbaycanın işğal altında olan torpaqlarından yazır və hər bir rayona erməni təcavüzkarlarının vurduğu maddi və mənəvi ziyanı vurğulayırdıq. Və hər dəfə də tezliklə işğal tariximizi qələbə, zəfər tarixinin əvəzləyəcəyi günə inanırdıq. İnamımız reallaşdı. Ötən ilin sentyabrın 27-dən başlayaraq vətən torpaqlarının müdafiəsinə hazır olan Azərbaycan oğulları işğalda olan torpaqlarımızı azad etdilər. İşğaldan azad olan tarixi torpaqlarımızda Azərbaycan bayrağı dalğalandırıldı. Ali Baş Komandanın qətiyyətli mövqeyi, ordumuzun gücü 44 günlük Vətən müharibəsində işğalçı Ermənistanı diz çökdürdü.

*Zümrüd BAYRAMOVA*



# MEDİA-da yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib

Mart ayının 3-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində çap mediası məhsullarının yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, görüşün əsas məqsədi çap mediası məhsullarının yayım sahəsindəki mövcud vəziyyətinin təhlili, yayım prosesinin səmərəliliyinin artırılması və bu sahəyə dair mövcud normativ hüquqi aktların müddəalarının şərh edilməsidir.

Görüşdə Bakı şəhəri ilə yanaşı rayonlarda da yayım işinin təkmilləşdirilməsinə ehtiyac olduğu vurğulanıb. Sonda görüş iştirakçılarının çap mediası məhsullarının abunə və satışının daha səmərəli təşkili istiqamətində təklifləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

# "Azərbaycan BMT üçün çox şey edib"

"Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü olduğu 30 il müddətində beynəlxalq sülh və təhlükəsizlik kontekstində bu təşkilata verdikləri nöqteyi-nəzərindən olduqca məzmunlu bir yol keçib. Azərbaycan müstəqilliyini faktiki olaraq elan etdikdən sonra BMT müstəqilliyin dərhal tanınması və bu fakta siyasi qiymət verilməsi istiqamətində operativ addım atıb. Bu da BMT-nin Azərbaycanın imkanlarına, dövlətçilik tarixinə yaxşı bələd olmasından irəli gəlir. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.



Onun sözlərinə görə, Azərbaycan bu illər ərzində BMT-yə dünya qlobal sülh və təhlükəsizlik kontekstində mümkün qədər böyük töhfələr verməyə çalışıb: "Lakin BMT-dən gözlənilən nəticəni ala bilməyib. Azərbaycan təcavüzə məruz qaldığı dövrdə BMT-nin üzvü olub. Haqlı olaraq da bu təcavüzün aradan qaldırılmasında BMT-nin norma və prinsiplərinin sona qədər icra olunacağına əmin idi. Təşkilat isə Azərbaycanın uğradığı təcavüzün qarşısının alınmasına lazımi qədər dəstək verə bilmədi".

Siyasi şərhçi sözlərinə belə davam edib: "Təhlükəsizlik Şurasının bir neçə dəfə qərar qəbul etməsinə baxmayaraq bu qərarların icrası yönündə prinsipsizlik nümayiş etdirdi. Buna görə də Azərbaycan sonunda BMT-nin etməli olduğunu öz gücü hesabına torpaqlarını azad etdi. Digər tərəfdən Azərbaycan BMT-nin fəaliyyətinin təkmilləşdirilməsi, strukturların gücləndirilməsi baxımından təklifləri irəli sürüb və heç vaxt əlindən gələni əsirgəməyib. Xüsusilə də, Təhlükəsizlik Şurasının qətnamələrinin etibarlı icra mexanizminin yaradılması barədə ilk dəfə olaraq ən qiymətli təşəbbüsü məhz Azərbaycan irəli sürüb. Azərbaycan bu 30 ildə BMT-ni zənginləşdirmək, prinsiplərini daha da təkmilləşdirmək üçün lazım olan addımları atıb. BMT-nin dünyadakı qlobal kampaniyalarının həyata keçirilməsində Azərbaycan dövlətinin böyük rolu var. Bir sözlə, Azərbaycan BMT üçün çox şey edib. Amma hələki BMT-dən haqqı olanı tam şəkildə ala bilməyib".

*Ayşən Vəli*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qlobal iqtisadi böhran:

## Azərbaycanın itkiləri və gəlirləri



**Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlar, bununla bağlı yaranmış Qərb-Rusiya qarşıdurması və qarşılıqlı sanksiyalar dünya iqtisadiyyatında, ticarətində, nəqliyyat sistemlərində öz mənfi təsirini göstərməyə başlayır. Artıq neft, qaz, taxıl, daş kömür, aliminum və sair vacib məhsulların qiymətində davamlı bahalaşma sürətlənib. Təbii qazın qiyməti tarixi maksimumu keçərək 2220-dən yuxarı qalxıb. Bu vəziyyət həmin məhsulları idxal edən dövlətlərə ciddi maliyyə itkiləri yaradır, lakin bu məhsulları istehsal və ixrac edənlər üçün gəlirləri artırır.**

Yaranmış vəziyyətdə Rusiyanın ixracdan gəlirləri artsa da, Qərbin ona qarşı tətbiq etdiyi geniş sanksiyalar digər sahələrdə ciddi iqtisadi zərər vurur. Rublun məzənnəsi də xeyli aşağı düşüb. Rusiyanın da Avropa və ABŞ-a qarşı əks-sanksiyaları onlara ciddi zərərlər vurmağa başlayıb. Avrozonada istehsalçı qiymətləri indeksi görünməmiş səviyyəyə çatıb- illik bazada 30%-i ötür. Avro da uzuclaşmağa başlayıb. Dolayı yolla mövcud situasiya bütün dünya ölkələrinə öz təsirini göstərir.

Bu vəziyyətdə dünyanın digər iqtisadi güc mərkəzi olan regionun- Çin və Hindistanın əhəmiyyəti daha da artır. Onlar bu vəziyyətdən zərərdən daha çox fayda əldə edəcəklər. Bu prosesdən ən çox qazanclı çıxan ölkənin isə ABŞ olacağını da dünya iqtisadi mərkəzləri qeyd edirlər. Bəs bu proses Azərbaycan üçün siyasi-iqtisadi cəhətdən hansı vəziyyətlər yaradacaq?

Əvvəlcə, siyasi dividentləri qeyd edək. Rusiyanın Qərb istiqamətdə düşdüyü çətin vəziyyət onun üçün cənubun əhəmiyyətini kəskin artracaq. Cənubda Çin və Hindistanla əməkdaşlığın artacağı ilə bərabər, cənub qərbində də eyni olacaq. Rusiya İran vasitəsilə cənub-qərbi Asiya ölkələrinə və Hind okeanı vasitəsilə dünya okeanına daha rahat və birbaşa yol əldə etmək üçün Zəngəzur dəhlizinin açılmasına cəhdələrini artrmağa məcburdur. Artıq Ermənistana təzyiq artılıb və Paşinyanın Azərbaycanla sülh müqaviəsi imzalamağa hazır olması bəyanatı bunun göstəricisidir. Rusiya Culfadan İran dəmiryollarına çıxışla böyük bir regiona nəqliyyat şəbəkəsi əldə edir. Həmçinin də bu dəhliz Böyük İpək yolunun cənub şəbəkəsinə qoşulur.

Zəngəzur dəhlizi Azərbaycan üçün həyati əhəmiyyətli, həmçinin Türkiyə və İran üçün iqtisadi əhəmiyyətlidir. Biz Naxçıvana və Türkiyəyə rahat çıxış əldə edəcəyik. Cənub istiqamətə- İrana dəmiryolu çıxışımız (Culfadan) bərpa olunacaq. Azərbaycan Rusiya, Belarus, Gürcüstan, Ukrayna və Qazaxstan üçün Yaxın Şərq ölkələrinə (İran, Türkiyə, Suriya, İraq və s) tranzit korudoru olacaq, həmçinin həmin ölkələrin də Rusiya, Avropa və keçmiş Sovet respublikalarına çıxışı üçün də. Bu isə ölkəmizin siyasi nüfuzunu daha da artıracaq.

İndi isə yaranmış geosiyasi sityasiyada Azərbaycanın iqtisadi gəlirləri və itkiləri barədə. Artıq məlumdur ki, qlobal böhrandan müəyyən itkilərimiz olsa da, biz həm də iqtisadi dividentlər əldə edəcəyik.

Başda taxıl olmaqla ərzağın, neftin və qazın qiyməti artmaqda davam edir. İlkin qiymətləndirmədə enerji resurslarının ixracından əldə edilən gəlirlərin, ərzaq idxalından itirilən vəsaitlərdən dəfələrlə çox olacağı görünür. Ümumi nəticədə dövlət olaraq qazandığımız itirdiyimizdən çox olacaq. Amma əhali olaraq əksinə ola bilər. Çünki neft gəlirlərinin artması ilə baş verə biləcək maaş və pensiya artımı bahalaşmanı tam kompensasiya edə bilməyəcək. Çünki dünyada taxıl və sair ərzaqların qiymətinin daha artacağı gözlənilir, biz isə ərzaq tələbatımızın yarısını idxal edirik.

Dünyanın ən böyük taxıl istehsalçısı Rusiya olduğuna görə taxıl bazarında gərginlik artıb. Rusiya qarşılıqlı sanksiya tətbiq edərək bir çox ölkələrə taxıl satmaqdan imtina edə bilər. Bu halda taxıl daha da bahalaşacaq. Bizim Rusiyadan taxıl almaq problemimizin olmamasına baxmayaraq, taxılın yeni dünya qiymətinə, əvvəlkindən daha da baha alınması nəticəsində unun və çörəyin qiymətinin bahalaşması qaçılmazdır.

Buna baxmayaraq hökumət çörəyin qiymətinin artmasına imkan verməməlidir. Bunun üçün imkanlar var. Belə ki, taxılın tonu hətta 50 dollar bahalaşsa belə biz ildə təxminən 2 milyon ton taxıl idxal etdiyimizə görə cəmisi 100 milyon dollar zərər edə bilərik. Lakin neft və qazın bahalaşmasından ən azı 1 milyard əlavə gəlir əldə edəcəyik. Deməkhökumət taxılda itirdiyinin 10 qatını neft və qazdan qazanacaq. Bu o deməkdir ki, taxılı kompensasiya etsə sadəcə əlavə gəlirlərin 10-da 1-ni sərf edə bilər. Bunun üçün taxıl idxalına subsidiyalar və kompensasiyalar verib ölkə daxilində qiyməti saxlamaq kifayətdir. Qısası çörəyin bahalaşması üçün heç bir əsas yoxdur. Digər ərzaq məhsullarında idxaldan asılılıq elə də böyük deyil, lakin hər bir halda zəruri ərzaq məhsulları istehsalını elə həddə çatdırmalıyıq ki, xarici bazarlarda bahalaşmasının təzyiqlərini ölkəmiz çox da hiss etməsin.

Buna görə də ərzaq təhlükəsizliyini təmin etmək üçün hökumət kənd təsərrüfatına dəstəyi daha da artırmalıdır. Dünyada nə baş verəcəyi, proseslərin necə inkişaf edəcəyi heç kimə məlum deyil. Qlobal böhran güclənsə ciddi problemlə üzləşə bilərik. Qısa vaxtda qeyri-neft sektoru, xüsusən də aqrar sektorla bağlı çoxsaylı güzəştlər və dəstəklərlə böyük dövlət proqramı elan olunmalı və sürətlə həyata keçirilməlidir. Bunun üçün ölkəmizin çox yaxşı potensialı var.

Ümid edək ki, Ukraynadakı hərbi əməliyyatlar tez başa çatacaq, sülhlə yekunlaşacaq, Qərb-Rusiya qarşıdurması da yumşalacaq və nəticədə iqtisadi böhran baş verməyəcək. Lakin biz ölkə olaraq ən pis ssenariyə də hazır olmalıyıq.

***Elçin Bayramlı***

# USAİD-in Azərbaycan əleyhinə növbəti fırıldağı!

**ABŞ konqresi tərəfindən təsdiq olunan "2022-ci il üçün Milli Müdafiə İcra Aktına" (National Defense Authorization Act for Fiscal Year 2022) əsasən, Konqres Dövlət Departamentinə Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi uğurlarla bağlı "neqativ" məlumatları əldə edərək 6 ay ərzində (yəni 2022-ci ilin iyun ayınadək) Konqresə təqdim etməyi tapşırıb və həmin "neqativ" məlumatları ABŞ tərəfindən Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün əsas kimi istifadə etməyi planlaşdırır!**

SİA olaraq dəfələrlə Azərbaycanda rəngli inqilablar cəhdlərinin edilməsi və bütün bu cəhdlərin arxasında məhz dünya miqyaslı fırıldaqçı, "inqilablar mühəndisi" kimi tanınan Corc Sorosun olduğunu dəfələrlə (!) sübut etmişdik.

Və bizim əvvəlki araşdırmalarımızda onu da sübut etmişdik ki, Soros Azərbaycan və digər müstəqil siyasət yürüdən ölkələrdə çevrilişlər etməkdən ötrü ABŞ-ın dövlət qurumları və xüsusilə hazırda onun tam nəzarətində olan USAİD-dən maksimum şəkildə istifadə edir.


While Soros insists that there was no corruption involved in his deals in Russia, he did invest in Russia's second-largest steel mill Novolipetsk Kombinat and in the Russian oil firm Sidanko as they were being privatized. He was joined in those purchases by Harvard Management Company, which invested its endowment fund. The bidding was closed to foreign investors, but Soros and Harvard Management were able to participate in the rigged auction by making their purchases through the Sputnik Fund, an investment fund tied to oligarch Vladimir Potanin.[77]

When Soros was asked in 1994 by a *New Republic* reporter to describe his power and influence in the former Soviet states, he replied, "Just write that the former Soviet Empire is now called the Soros Empire."[78]

By 1995, Soros says he completed "phase 1" of his "opening up closed societies." It was at that point that ... to phase two: making open societies more viable.[79] ...

**1994-cü ildə "New Republic" nəşrinin müxbiri Corc Sorosdan xahiş edir ki, o, özünün sabiq Sovet ölkələrindəki gücünü və təsirini qiymətləndirsin. Suala cavab olaraq Soros bunları deyir: "Sadəcə yazın ki, əvvəlki Sovet imperiyası indi Soros İmperiyası adlandırılır".**

Bu həyasız ünsürün məşhur ifadəsi Met Palumbonun yeni çapdan çıxan "Pərdə arxasındakı insan: Sorosun məxvi şəbəkəsi" adlı kitabından bir parçadır.

Yeri gəlmişkən, biz bu kitab haqqında məlumat vermişdik və qeyd etmişdik ki, həmin kitabda Sorosun Azərbaycanda yaratdığı şəbəkəyə də yer ayrılıb.

Şübhəsiz ki, Soros, maliyyələşdirdiyi və dəstəklədiyi Bayden iqtidarını, əslində isə elə köhnə Obama komandasını açıq və geniş miqyaslı saxtakarlıqla hakimiyyətə gətirdikdən sonra, daha dəqiq desək, qlobal xaosun yaradılması məqsədlərinə çatmaqdan ötrü onun əlində resurslar daha da genişləndi.

Əlbəttə ki, Soros birinci növbədə ABŞ dövlət departamentinin əsas xarici maliyyələşmə təsisatı, əslində isə Mərkəzi Kəşfiyyat Agentliyinin aryerqardı olan USAİD-i nəzarətə götürdü. Məhz onun birbaşa tapşırığı ilə USAİD-in rəhbərliyinə ən seçimli yetişdirməsi Samanta Pauer gətirildi.

Samanta Pauer nəinki ABŞ-da, ümumiyyətlə bütün dünyada qatı antitürk kimi tanınır. O, qondarma erməni soyqırımının ABŞ tərəfindən tanınmasının əsas lobbiçilərindən biri, hətta birincisi idi! Əbəs deyil ki, Samanta Pauer Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı 44 günlük müharibə zamanı dəfələrlə Azərbaycan xalqını, ümumilikdə isə Türk dünyasını təhqirlərə məruz qoyurdu!










Və biz Azərbaycan torpaqlarının 30 illik işğala məruz qaldığı dövrlərdəki fəaliyyətlərini də buraya əlavə etsək bu zaman adıçəkilən fərdin ermənidən artıq erməni (sözgəlişi-R.R.) olduğunu əminliklə vurğulaya bilərik.

Şübhəsiz ki, müxtəlif illərdə həm Azərbaycanda və həm də Türkiyədə (əsasən, 2016-cı il çevriliş cəhdi-R.R.) qarışıqlıq yaratmaq niyyətləri, cəhdləri puç olan sorosçu demokratlar hakimiyyətə gələn kimi, bütün əsas qlobal məsələləri kənara qoyaraq, birinci növbədə qondarma "genosidi" tanıdılar və bununla da dərhal özlərinin revanşizm və rəngli çevrilişlər siyasətlərinə sadiq qaldıqlarını isbatlamış oldular.

Xüsusilə xatırladaq ki, SİA olaraq apardığımız təməlli araşdırmalar vasitəsi ilə biz bu niyyətlərin əksəriyyətini ifşa edə bildik və ABŞ demokratlarını ən azından Azərbaycana qarşı siyasətlərində müəyyən dəyişikliklər etməyə məcbur etdik!

Misal üçün, demokratlar iqtidarı özünün Azərbaycan üzrə əsas əlaqələndiricisi kimi ilkin olaraq fərsiz Filip Rikeri təyin etmişdi. Məhz SİA-nın araşdırmaları nəticəsində məlum olmuşdu ki, Filip Riker əvvəllər əsasən Balkan ölkələrində çalışdığı zaman müxtəlif siyasi dairələrdə onun ləqəbi, yaxud ayaması "Axmaq Filip" kimi səsləndirilirdi. O, həmçinin Cozef Baydenin oğlu Xanterin Ukraynadakı korrupsiya əlaqələrindən əldə etdiyi gizli gəlirlərin gizlədilməsinə çalışırmış. Bundan əlavə, bu saxtakar diplomatın əyləncəli həyat vurğunu kimi tanındığı məlum olmuşdu.

**SENSASİON FAKTLAR+İLK DƏFƏ!**



Nəticədə (!) bu təyinat uzun sürmədi. Çox yəqin ki, məhz bizim araşdırmalarımızdan sonra, ABŞ-ın Azərbaycandakı səfirliyi Filip Rikerin ifşa olunduğunu və onun fəaliyyətinin ABŞ-ın regiondakı nüfuzuna ciddi xələl gətirdiyi barədə məlumat ötürərək, onun dərhal əvəz olunmasını xahiş etdi. Nəticədə Filip Rikeri digər amerikalı diplomat Karen Donfrid əvəz etdi.

Amma daha maraqlı proseslər USAİD-in ermənipərəst rəhbəri Samanta Pauerin ətrafında baş verdi. Belə ki, biz ciddi araşdırmalar nəticəsində müəyyən etdik ki, o, 17 aprel 2006-cı ildə efirə çıxan "Erməni soyqırımı" sənədli filmində çıxış edərək türkləri alman faşistlərinə bənzədərək antitürk xarakterli ultramillətçi və irqçi fikirlər səsləndirib.




Beləliklə, Samanta Pauerin qərəzli və açıq şəkildə milli və irqi ayrı-seçkilik baxışlarını filmin 41-42-ci, 44-45-ci, və 53-cü dəqiqələrində izləyə bilərsiniz.

https://www.imdb.com/title/tt0472044/reference?ref_=ttfc_ql_2

Maraqlı fakt odur ki, məhz bizim araşdırmalarımızdan sonra həmin film dərhal internetdə açıq yayımdan çıxarıldı və hazırda ona yalnız xüsusi vasitələrlə əldə edib baxmaq olar.

https://sia.az/az/news/politics/856893.html

Bundan başqa, o da məlum olub ki, ifşa olunduğunu və bu ifşanın onun siyasi maraqlarına zərbə vuracağını öyrənən Samanta Pauer ermənilərdən xahiş edib ki, həmin filmin yayımı dayandırılsın və yalnız müəyyən hissəsini, yəni Samanta Pauerin çıxışı olmayan hissəsi ictimailəşdirilsin. Məqsəd odur ki, Samantanın antitürklüyü ifşa olunmasın və o, vəzifəsindən istifadə edərək, bir tərəfdən ermənilərə kömək etsin, digər tərəfdən isə Azərbaycan və Türkiyədə dövlət əleyhinə fəaliyyətlərini davam etdirsin. Amma o, bir həqiqəti unudub ki, bu gün küçədə 21-ci əsrdir və onun çıxışlarını əldə etmək, dünya ictimaiyyətinin diqqətinə çatdırmaq heç də çətin proses deyil.

Əslində, bu gün də məlumdur ki, Samanta Pauer davamlı olaraq erməni sevdasını gizlətmir, hətta bu gün separatçı tör-töküntülərin qaldığı Qarabağ ərazilərimizdə son nəfəslərini verən quldur rejimə vəsaitlər ayırır, orada ermənilər üçün yeni yaşayış məntəqələri tikdirir. Yəqin ki, son vaxtlar internet şəbəkələrində Xocalıda, Ağdərədə və s. separatçı tör-töküntülərinin qaldıqları ərazilərimizdə inşa edilən yeni tikililəri, çəkilən yolları müşahidə etmisiniz...

Lakin bütün bunlar öz yerində, sonrakı faktlardan məlum olub ki, bugünlərdə Samanta Pauer Azərbaycanda növbəti fırıldağa əl atıb. Beləliklə, daha ətraflı izahata keçək.

Xatirinizdədirsə, Soros agenturası haqqında məlumat verərkən onun iki əsas təsisatlarından biri olan Şərq-Qərb İdarəetmə İnstitutunun (EWMI) və ya (ŞQİİ) Azərbaycandakı tam qanunsuz və şübhəli fəaliyyətləri barədə məqalə ilə çıxış etmişdik. Bütün məlumatlar ətraflı olaraq aşağıdakı yazıda qeyd olunub:

https://sesqazeti.az/news/analytics/898834.html

Həmin yazıda qeyd etdiyimiz kimi, ŞQİİ-nin əsas təsisçisi Corc Soros olduğu halda, onun icraçı rəhbəri Adrian (Andrey) Heyrik adlı biridir.


EAST·WEST MANAGEMENT INSTITUTE

Social Engagement Support (SES)Activity

Overview and background

East-West Management Institute (EWMI), in partnership with International Centre for Not-for-profit Law (ICNL) Social Engagement Support (SES) Activity, a five-year Activity funded by the United States Agency for International Development (USAID).

Və məhz bu səbəbdən onun haqqında rahat şəkildə hər hansı bir məlumat əldə etmək çətinlik yaradır. Lakin bu yerdə sual yaranır - yəni özünü ABŞ QHT-si kimi təqdim edən və guya insan haqları sahəsində fəaliyyət göstərən təşkilat rəhbəri hansı səbəbdən özünü gizlətməyə çalışır? Apardığımız uzunm araşdırmalardan sonra biz bəzi mənbələrdən onun nadir şəklini əldə etmişik.

Bu arada, yeni məsələnin daha dərin




məğzinə keçid etməmişdən öncə onu da xatırlatmaq istərdik ki, "OUN"-nun qurulmasında və fəaliyyətin gücləndirilməsinə əsas rol oynamış aparıcı qüvvə, bütün dünyada terrorçu və faşist kimi tanınan, ikinci dünya müharibəsi zamanı faşistlərlə birgə kütləvi qətllərdə iştirak etmiş Stepan Bandera olmuşdur. Və bu səbəbdən də Adrian Heyrik özünün Azərbaycandakı nümayəndəliyinin rəhbərliyinə Yuliya Yeşmuxanova (Yulia Yesmukhanova) adlı şəxsi gətirib ki, həmin şəxs Ukraynada Sorosun maliyyələşdirdiyi DOBRE adlı layihəsini icra edən əsas simalardan biri





idi.

Bu yerdə daha bir danılmaz faktı da xatırlatmaq istərdik ki, Stepan Banderanın əsas əqidə yoldaşı və silahdaşlarından biri Ermənistanın hazırda milli qəhrəman elan etdiyi digər qatı faşist və antitürkçü, paytaxt İrəvanda abidəsi ucaldılmış Qareqin Njde olmuşdur.

Bir çoxlarında yaranan sual da budur ki, bəs necə olur, milliyətçə yəhudi olan Corc Soros məhz faşist ideologiyalı şəxsləri özünün yaratdığı təşkilatlara rəhbər təyin edir? Bu məqamla da bağlı maraqlı faktlar əldə etmişik.

Məsələn, bir neçə il bundan əvvəl, xüsusən ABŞ mətbuatında Corc Sorosun Nasist formasında şəkilləri paylaşılmış və o, nasistlərlə əməkdaşlıq etməkdə ittiham edilib.

Beləliklə, əslində özü nasizm ideologiyasının tərəfdaşı olan birinin dünyada daimi olaraq xaos yaratmaqda gerçək niyyətlərinin əsas səbəbləri və məqsədləri məlum olur. Və bu şəxsin yaratdığı və onun ideologiyasının tərəfdaşları olan Samanta Pauerin USAİD təşkilatı, eləcə də Adrian Heyrikin ŞQİİ-si Azərbaycanda hələ də fəaliyyət göstərirlər. Lakin bu təşkilatlar özlərinin əmək-




daşlığını gizli formata çevirmək qərarına gəliblər.

Belə ki, biz öncə də xəbər vermişdik ki, Corc Soros nəzarətində olan USAİD vasitəsi ilə Azərbaycanda sabitliyi pozmaq üçün ŞQİİ-na əlavə 15 milyon dollar qrant ayırmışdı:

https://sia.az/az/news/politics/869592.html

Həmçinin, araşdırmamız nəticəsində müəyyən etmişdik ki, yeni qrantın ayrılmasında ciddi qanunsuzluqlara yol verilmişdi.

https://sia.az/az/news/politics/877915.html

Beləliklə, bütün faktlara baxmayaraq ŞQİİ, 2021-ci ilin oktyabr ayının 1-dən yeni "İctimai fəallığa dəstək" adlı layihəsinə həyasızcasına start vermiş, hətta özünü loqosundan istifadə etməkdən belə çəkinməmişdi!

Amma, 2022-ci fevral ayının sonunda, USAİD qərara gəldi ki, ŞQİİ-nin bu layihənin





icrasına cəlb olunmasını gizlətsin və layihənin rəsmi sənədlərindən ŞQİİ-nin adı və loqosu yığışdırılsın. Hazırda layihənin loqosunda layihənin guya birbaşa USAİD tərəfindən icra olunduğu qeyd olunur. Yeni formatda layihənin rəsmi sənədlərinin görünüşü tam fərqli şəkildə verilir.


USAID's Social Engagement Support (SES) Activity

Overview and background

USAID's Social Engagement Support (SES) Activity is a five-year project funded by the United States Agency for International Development (USAID).

Bəs nə baş verdi, hansı səbəbdən USAİD qəflətən belə bir yeni fırıldağa əl atmalı oldu? Əslində səthi araşdırma belə, bu səbəbləri müəyyən etməyə imkan verir.

1. Əlbəttə ki, əsas səbəblərdən biri USAİD-in və ŞQİİ-nin Azərbaycan əleyhinə fəaliyyətlərinə dair, xüsusən də rəngli inqilabların növbəti raunduna hazırlıqları ilə bağlı yerli mətbuatın, xüsusilə aparılan araşdırmalar və yazılar olmuşdur.

2. USAİD-in öz fəaliyyətlərinin gizli formata keçirilməsinin başqa səbəblərindən biri də şübhəsiz ki, Azərbaycan və Rusiya arasında müttəfiqlik sazişinin imzalanması olmuşdur. Xatırladaq ki, həmin sazişin 11-ci maddəsinə deyilir (sitat):

"11. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər Tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alırlar."

Əlbəttə ki, bu Bəyannamənin imzalanması USAİD-i təşvişə salıb. Belə ki, hələ 2019-cu ilin 5 iyul tarixində USAİD yeni fəaliyyət istiqamətinin konsepsiyasını təqdim edərək əsas fəaliyyət istiqaməti kimi "Kremlin zərərli təsirinə müqavimət"i (COUNTERING MALIGN KREMLIN INFLUENCE ) müəyyən etdi və bununla da faktiki olaraq Rusiya ilə sıx siyasi və iqtisadi bağlılıqları, strateji tərəfdaşlıqları, eləcə də partnyorluqları olan ölkələrdə rəsmi (!) anti-Rusiya təbliğatına start verdi və hazırda da həmin fəaliyyətləri davam etdirir. İstinad üçün:

https://www.usaid.gov/sites/default/files/documents/1863/CMKI_Development_Framework_.pdf

Şübhəsiz ki, Soros bu amili nəzərə almalı idi və o, rəhbərlik etdiyi qurumların Azərbaycandan qovulmasını önləmək üçün dərhal USAİD-ə tapşırıq verdi ki, ŞQİİ və digər Sorosla bağlı qurumların fəaliyyətləri müvəqqəti olaraq "kölgə" formatına keçsin.

3. Bundan əlavə, SİA olaraq daha ciddi narahatlıq və suallar yaradan başqa bir məlumat da əldə etmişik. Belə ki, məlumata görə, faktiki olaraq ŞQİİ tərəfindən (yəni onun əməkdaşları tərəfindən) icra olunan layihə əsas fəaliyyət ərazisi kimi Qarabağ regionunu hədəf alaraq, özünün əsas ofisini Ağcabədidə yaratmağı planlaşdırır. Bəs burada narahatlıq yaradan məqam nədir? Elə maraqlısı da budur! Beləliklə, ABŞ konqresi tərəfindən təsdiq olunan "2022-ci il üçün Milli Müdafiə İcra Aktına" (National Defense Authorization Act for Fiscal Year 2022) əsasən, Konqres Dövlət Departamentinə Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi uğurlarla bağlı "neqativ" məlumatları əldə edərək 6 ay ərzində (yeni 2022-ci ilin iyun ayınadək) Konqresə təqdim etməyi tapşırıb və həmin "neqativ" məlumatları ABŞ tərəfindən Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün əsas kimi istifadə etməyi planlaşdırır.

Tapşırığa əsasən Dövlət Departamenti 6 ay ərzində (yeni cari ilin iyun ayınadək) aşağıdakı 3 əsas istiqamət üzrə məlumatların toplayaraq Konqresə təqdim olunmasını təmin etməlidir:

a. Azərbaycanın "Dağlıq Qarabağa" qarşı istifadə etdikləri Bayraktarlarda ABŞ texnologiyalarından istifadə "faktları";

b. " Azərbaycan tərəfindən "Dağlıq Qarabağ" mülki əhalisinə qarşı guya "fosfor" və "klaster" mərmilərdən istifadəsi "faktları" barədə məlumatlar;

c. Müharibə zamanı Türkiyə və Azərbaycan tərəfindən guya "əcnəbi döyüşçülərin" cəlb olunması "faktları" haqqında "məlumatların" toplanılması.

Təkcə yuxarıdakı tapşırıqlara baxmaq kifayət edir ki, USAİD-in Qarabağda təcili fəaliyyətə başlamasının səbəblərini başa düşək. Şübhəsiz ki, USAİD-in və ŞQİİ-nin əməkdaşların əsas məqsədləri, kənd-kənd gəzərək, yerli əhali ilə görüşmək və onlardan yuxarıdakı "faktları" (əsasən ikinci və üçüncü bəndlər üzrə) təsdiq edəcək "məlumatları" toplayaraq Konqresə ötürməkdir ki, sonradan ermənilərin "böyük yeznəsi" Bob Menendesin nəzarətində olan Konqres Azərbaycanı sanksiyalar tətbiq etməklə hədələməklə, ölkəmizə qarşı "qəbuledilməz" şərtlər irəli sürsün!

Aydın olur ki, birbaşa Sorosun qulluğunda olan ABŞ demokratları Azərbaycana qarşı yeni həmlələr hazırlamaq üçün özünün burda yerləşdirdiyi qurumlarından maksimum istifadə etməyi planlaşdırırlar və bu məqsədlə müxtəlif fırıldaqlara, o cümlədən Sorosla bağlı təsisatların layihə icraçıları kimi adlarının gizlədilməsi kimi addımlara əl atırlar.

Biz isə öz tərəfimizdən yalnız ümid edirik və xüsusilə inanırıq (!) ki, aidiyyəti qurumlar bu araşdırmaların nəticələrini ciddi qəbul edərək lazımı, müvafiq və qabaqlayıcı addımlar atacaqlar.

**Rövşən RƏSULOV**

***P.S. O ki qaldı USAİD-in burada qalıb fəaliyyət göstərməsinə, bu məsələyə artıq son qoyulmalıdır ki, növbəti təhlükələrin qarşısı alınsın. Xatırlatma istərdik ki, USAİD artıq bir çox ölkələrdən çoxdan qovulmuşdur.***

# Marqarita Simonyanın ermənisayaq labirinti

**Yazıya başlamazdan əvvəl bir məsəli xatırladım: Dünya dağılsa, yerlə göy birləşsə, axar sular dayansa belə erməni erməniliyini tərgitməz. Nəinki tərgitməz, özünə münasib müsahib tapsa belə onu erməniləşdirər. Təki orada erməni hiyləgərliyi, məkri üçün məqam yaransın.**

Ötən ilin fevral ayında, daha doğrusu Xocalı soyqırımının ildönümü günündə dünyanın müxtəlif KİV-lərinin nümayəndələri üçün keçirilən mətbuat konfransında verilən sualları zamanın tələbləri və reallıq baxımından cavablandıran, liderlik məharətini göstərən Prezident İlham Əliyev geniş dünyagörüşü, məntiqli açıqlamaları, siyasi hazırlığı, hadisələri düzgün dəyərləndirmə məharəti ilə tərəf müqabillərini heyran etdi. Dövlət başçımızın hərtərəfli hazırlığını etiraf edən jurnalistlər bu görüşü ustad dərsi kimi də dəyərləndirdilər. Hətta qərəzli sualları belə obyektiv, həqiqətlərə əsaslanaraq cavablandıran Prezident İlham Əliyevin açıqlamaları jurnalistlərdə dünyada baş verən , Cənubi Qafqazda yaranan mövcud vəziyyət barədə geniş təsəvvür yaratdı.



Bu günlərdə Rusiyaya rəsmi səfər çərçivəsində bu ölkənin aparıcı KİV-lərin rəhbərləri ilə görüşündə bütün sualları özünəməxsus təmkinlə cavablandıran Prezident İlham Əliyev növbəti dəfə liderlik qətiyyətini hadisələri zamanın prizmasından izah etməklə göstərdi. Amma bir dananın naxırı korladığı məsəlinə oxşar vəziyyət burada da hiss olundu. Erməni əsilli jurnalist, Rusiyanın "RT"" telekanalının və "Rossiya seqodnya"" Beynəlxalq İnformasiya Agentliyinin baş redaktoru Marqarita Simonyanın ermənilərə məxsus "vizit kartını" ortaya qoyması bəzi məqamların xatırlanması məcburiyyətini yaratdı. Guya həqiqətləri açıqladığı üçün özünü Avropaya girişi qadağan olunanlar sırasında görən Marqarita nala-mıxa döyə- döyə zakı-pakını bəlli etdi. Başından böyük elə sözlər dedi ki, hətta həmkarları belə onun sözünü yarıda kəsməyə məcbur oldular.

Erməni olduğu üçün Azərbaycana gəlişinin yaradacağı vəziyyətdən "narahat olduğunu" bildirən, "Biz hamımız bilirik ki, ermənilərin Azərbaycana girişinə qadağa qoyulub. Adətən bu, təhlükəsizlik mülahizələri ilə izah olunur" yalanları ilə keçi kimi suyu bulandırmağa çalışsa da Azərbaycanın multikultural dəyərlərinə kölgə sala bilmədi. "Mənim üçün inanmaq çətindir və mən inanmıram ki, insanlar Azərbaycanda canlı etnik erməni görərsə onun üstünə atılar və onu tikə-tikə edərlər, hər halda orta əsrlərdə yaşamırıq" sözləri ilə əvvəlki qənaətini təkzib edən Marqarita kimiləri barədə çox yerində deyilib ki, "Dəlidir, nə etsə yeridir." Bu atalar məsəli vəziyyətə uyğun redaktə olunsa müdrik kəlamın mahiyyətini belə yozmaq olar: "Buqələmun xisləti, məqama, məkana görə rəng dəyişmək erməniliyə xas mahiyyətdir." Təki işlədilən hər kəlmənin, edilən məkrli gedişlərin daşnak siyasətinə xeyri olsun. Ermənistanın qərəzli niyyətlərinin həyata keçirilməsi naminə yaranan fürsət əldən çıxmasın.

"Birincisi, deməliyəm ki, bizimlə bölüşdüyünüz informasiya yumşaq desək, həqiqətə uyğun deyil. Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur" sözləri ilə Marqaritanın qərəzli niyyətini siyasi təcrübəsi, hazırlığı ilə sadə dillə desək boykot edən Prezident İlham Əliyev monoetnik dövlət olan Ermənistandan fərqli olaraq Azərbaycanın çoxmillətli ölkə kimi dünyada böyük nüfuz qazandığını bildirdi. Birinci Avropa Oyunlarında iştirak edən ermənilərin təhlükəsizliyinin qorunduğunu, Ukraynanı təmsil etsə də milliyyətcə erməni olan idmançıya gümüş medalı şəxsən təqdim etdiyini, katolikos Qareginin ölkəmizə səfərini, Bakının mərkəzindəki erməni kilsəsində 5 mindən çox kitabın qorunub saxlanıldığını xatırlatdı. Bildirdi ki, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında törədiyi vəhşiliklər, ekoloji terrorlar, mülki əhaliyə göstərilən ağlagəlməz vəhşiliklər dünyada baş verən müharibələr tarixində müşahidə olunmayıb. Qarabağ və Zəngəzur da daxil olmaqla işğal altında qalan bütün əraziləri xarabalığa çevirib, özlərinə xas bayquş yuvasına döndərən ermənilərin ayaq basdıqları yerlərdə heç bir canlıdan əsər-əlamət, həyat nişanəsi yoxdur.

Kütləvi qırğınlar zamanı öldürülən günahsız azərbaycanlıların toplum halda basdırıldıqları məzarlıqların yeri, əsir götürülən, itkin düşən günahsız azarbaycanlıların taleyi hələ də məlum deyil. "Erməni silahlı dəstələrinin nəzarəti altında olan əraziyə təsadüfən düşmüş, öz evlərinə getmək istəyən və tutulub saxlanmış, sonra əsir götürülmüş və işgəncələrə məruz qalmış azərbaycanlıların başına gələnlər barədə danışmaq istəmirəm" söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, nümunə üçün bir nəfər belə olsun azərbaycanlının yaşamadığı Ermənistandan fərqli olaraq hazırda Azərbaycanda minlərlə erməni yaşayır. Prezident İlham Əliyevin "Bəli, lakin mən belə başa düşdüm ki, siz indiki halda erməni kimi sual verdiniz" sözlərinə yenə də erməni təfəkkürü ilə yanaşan Marqarita çox yaxşı bilir ki, Azərbaycana gələn rəsmi nümayəndələrin, çəkiliş qruplarının tərkibində, dövlət başçımızdan müsahibə alanlar arasında erməni soyadlı nümayəndələr çox olur. Sualının qərəzli olduğunu özü də etiraf edən Marqaritanın bildirdiyi kimi, ətrafına topladığı 6 min işçisinin əksəriyyətinin ermənilərdən ibarət olması şübhəsizdir. Bu "potensial" o deməkdir ki, onun başçılıq etdiyi mətbu orqanlarında Azərbaycana qarşı təxribat aparan "Marqarita ordusu" formalaşıb.

Tədbirdə iştirak edən Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Birinci və İkinci Qarabağ müharibələri dövründə ermənilərin törətdikləri vəhşiliklər, multikultural ənənələrə sadiq Azərbaycanda bütün millətlərin qardaşlıq ailəsinin üzvləri kimi yaşamaları barədəki açıqlamalarından ermənisayaq xəbisliklə uzaqlaşmağa çalışan, "İndi mən tarixə varmaq istəmirəm" söyləyən Marqaritanın geniş auditoriyada Azərbaycan əleyhinə təxribat aparmaq cəhdi boşa çıxdı. Buna baxmayaraq tolerant ölkə, qonaqpərvər olan Azərbaycana gəlmək istəyən Marqarita Simonyanın istəyi müsbət qarşılandı. Hansı milləti təmsil etməsindən asılı olmayaraq Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə uyğun qonaq qarşılamaq adət-ənənələrinə sadiq olduğunu həmişə göstərib. Bu qonaqpərvərlik isə ölkəmizə gələnlər tərəfindən yüksək dəyərləndirilib. İstər Marqarita olsun, istər Haykanuş, Siranuş. Aşot, Karen də ola bilər. Azərbaycana xoş niyyətlə gələnlərə eyni səmimi münasibət göstərilir. Çox təəssüf ki, erməni ilə təmasda olan heç kim bu toplum haqqında müsbət rəy bildirməyib. Özünün dediyi kimi, 6 minlik məlumat, ensklopedik bazaya malik olan Marqarita yəqin ki, tanınmış şəxsiyyətlərin ermənilər barədə söylədiklərindən xəbərdardır. Ermənilər haqqında deyilənlərdən bəzilərini xatırladaq.

Amerikada yaşayan, milliyyətcə erməni olan yazıçı L.Z. Sürməliyanın "Xanımlar və cənablar, müraciətim sizədir" kitabından götürülmüş bu sətirlər isə bir erməninin öz soydaşlarının əməllərinə verdiyi qiymətdir: " Türklərlə ermənilər arasındakı ziddiyyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin amansız qəddarlığıdır." Ermənilərin işğal etdikləri ərazilərdə əsir götürdükləri azərbaycanlılara qarşı amansız münasibətini əks etdirən, "Moskovskiy komsomoles" qəzetində dərc olunmuş "Neftyanoy sindrom" adlı məqalədə yazılır : " ... Əsirlər var. Lakin artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, çığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür." Oxuyanda belə insan qanını donduran bu sətirlər ermənilərin törətdikləri vəhşiliklərin şahidlərin gözü ilə canlandırılan minlərlə qanlı nümunələrdən kiçik fraqmentlərdir. Təbii ki, Marqarita da "dəyərləndirmələrdən" xəbərdardır.

Marqarita Simonyan, Azərbaycana gəl! Qaniçən Andranik, Amazasp, Varujan Karapetyan, Monte Melkonyan, Caan Ohanesyan, Aşot Qaloyan, Boris Simonyan, Qrant Markaryan... Koçaryan, Sarkisyan kimi onlarla erməni terrorçunun, qaniçənin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, insanlıq tarixində müşahidə olunmayan qəddarlıqları bir daha xatırladıqdan sonra Azərbaycan torpağına ayaq bas. İstəyirsən özünlə bütün işçilərini də gətir. Bu şərtlə ki, öz millətindən olan qaniçənlərin işğal altında saxladıqları torpaqlarda törətdikləri vəhşilikləri vicdanının (əgər varsa) səsinə qulaq asmaqla seyr et. Tamamilə dağıdılan Ağdama, Füzuliyə, Kəlbəcərə, Laçına get. Daşı daş üstündə qalmayan, xarabaya çevrilən evlərdə "dincəl." Azərbaycanın tarixi abidələrindəki erməni vandallarının izlərini, dağıntıları seyr et. Xocalıda erməni vəhşilərinin qətlə yetirdikləri 613 günahsız azərbaycanlının ağrı-acısını bir anlığa da olsa yaşa! Ev heyvanlarını diri-diri yandıran, məktəbləri alova bürüyən ermənilərin "insanlıq" görüntülərini yadına sal. Ondan sonra öz millətini tanı. Erməni silahlılarının qətlə yetirdikləri şəhidlərin yaxınlarının üzlərində əbədi iz salan kədəri seyr etməyi, hüznlü duyğuları yaşamağı bacar. Ondan sonra qismət olsa, növbəti dəfə belə bir tədbirdə iştirak etsən özünə sual ver: "Mənim bu müqəddəs torpağa ayaq basmağa haqqım varmı?"

***Xuraman İsmayılqızı***



# İntihar etmək istəyi nədən irəli gəlir?

*MARAQLI MƏQAMLAR*

"Səbəbindən asılı olmayaraq bütün ölümlər insana təsir edir. Xüsusən son zamanlarda aldığımız uşaq ölüm xəbərləri, intiharları bizi sarsıdır. Azyaşlılarda intihar hallarına demək olar ki, çox rast gəlmirik". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Nuriyyə Quliyeva bildirib.

Onun sözlərinə görə, ölüm haqqın da fikirlər 10 yaşında formalaşdığı üçün intihar hallarına da adətən bu yaşdan etibarən rast gəlirik: "İntihar edən uşaqların əksəriyyətini oğlanlar təşkil edir. Amma intihara cəhd edənlərin çoxu qızlardır. Sadəcə onlarda bu daha çox nümayiş və istəyinə nail olma xarakteri daşıdığı üçün çox vaxt ölümlə nəticələnmir. Ümumiyyətlə, uşaq intiharlarının səbəblərini aşağıdakı kimi sadalaya bilərik:

- ailədə belə bir cəhdin olması (intihar halı)
- ailə üzvlərindən birinin itkisi
- boşanma
- münaqişə
- başqalarını cəzalandırma
- məqsədinə nail olma
- diqqət çəkmə
- günahkarlıq hissi və s.

Uşaqlara ən çox təsir edən ailədə baş verən münaqişə, boşanma, ana-atanın ayılmasıdır. Bəzən uşaq buna mane olmaq üçün intihara cəhd edə bilər. Bundan başqa ailə üzvlərindən kimisə itirən uşaq intihar etməklə ona qovuşacağını düşünür və buna cəhd edir. Ən təhlükəli məqamlardan biri isə ailədə kiminsə intihara cəhd etməsidir. Uşaq bunu nümunə olaraq götürür və ilk ən çətin anında buna əl atır. Bəzən belə bir nümunənin olması yeniyetməlik, hətta yetkinlik dövründə öz təsirini göstərir.

İntihar hallarına ən çox yeniyetməlik dövründə rast gəlirik. Bu dövrdə yeniyetmələrin xarakterində, seçimlərində, fikirlərində ciddi dəyişikliklər nəzərə çarpır. Bu səbəbdən ailələr xüsusi diqqətli olmalıdır. Ailədə baş verən kiçik münaqişə belə yeniyetməni intihara apara bilər. Yeniyetmənin daha əvvəl reaksiya vermədiyi hadisəyə artıq daha kəskin reaksiya verməsi gözlənilən haldır.

Yeniyetmələrin intihar səbəbləri arasında genetik meyllilik, iqtisadi vəizyyət, psixoloji problemlər, ailə üzvləri ilə münaqişə, sevdiyi insanla problemlərin olması, narkotik istifadəsi və s. sadalana bilər.

Onu da qeyd etmək lazımdır ki, daha əvvəlcə intihara cəhd edən şəxslərin əksəriyyəti daha sonra da buna cəhd edir. Bu səbəbdən intihara cəhd edən şəxslər daim nəzarətdə olmalıdır. Çünki onlar buna yenidən cəhd edəcəklər. Əlavə etmek istədiyim bir məqam da budur ki, bəzən KİV-də verilən intihar xəbərləri həssas insanlara ciddi təsir edir. Onlar kiçik bir problemlə rastlaşdıqda çıxış yolunu intiharda görürlər və buna cəhd edirlər".

***Banuçiçək Hüseynli***



# Kişilər niyə qadınlardan az yaşayır

## ARAŞDIRMA

**Şərtlərdən asılı olmayaraq, bu günə qədər kişilərin qadınlardan "az" yaşadığı elmi həqiqətdir. Bəs kişilərin qadınlardan qısa ömür sürməsinin səbəbləri nələrdir?**

Əslində vəziyyət o qədər ciddidir ki, bu mövzuda aparılan araşdırmalar göstərir ki, 85 və daha yuxarı yaşda olan insanların 67%-i qadınlardır. Bəs kişilərin günahı nə idi ki, qadınlardan daha qısa ömür sürürlər? Bu hadisə həm vərdişlərlə, həm də genlərindəki bəzi əsas problemlərlə əlaqədardır. İstəyirsinizsə, gəlin bütün bunları birlikdə öyrənək.

Qədim dövrlərdə vəziyyət çox da fərqli deyildi. İsveçin hələ 1800-cü ildə demoqrafik göstəricilərə dair topladığı məlumatlar



göstərir ki, o vaxtlar da qadınlar 33, kişilər isə 31 yaşa qədər yaşayırdılar. Bunun ən böyük səbəbi müharibələr, kişilərin qadınlardan qat-qat daha aktiv həyat tərzi sürməsi, spirtli içki və nəhayət tütün istifadəsidir.

İlk baxışdan düşünə bilərsiniz ki, kişilər daha az yaşayırlar, çünki onlar daha çox hərəkətli həyata üstünlük verirlər. Ancaq günümüzə nəzər saldıqda qadınların ən az kişilər qədər aktiv həyat sürdüyünü və siqaret və tütün istifadəsində onlardan geri qalmadıqlarını görmək olar.

Bildiyiniz kimi, bir hərəkətin nəticələrini qiymətləndirmək və ya mühakimə etmək imkanı verən beynimizin ön hissəsidir. Bu günə qədər aparılan araşdırmalar göstərir ki, kişilərin frontal lobları qadınlardan daha gec inkişaf edir.

Məhz bu ləng inkişafın sərxoş halda avtomobil idarə edərək əsəblərinə hakim ola bilməyərək özünə və ya başqalarına zərər verdiyini deyə bilərik. 2007-ci ildə aparılan bir araşdırma göstərdi ki, kişilər qadınlardan iki-dörd dəfə çox qətl, intihar və qəsdən yaralanma nəticəsində zərər görürlər.

Yəni kişilər atdıqları bir hərəkətin pis nəticə verə biləcəyini qadınlardan gec dərk



edirlər. Bu, onların daha çox risk almasına, hətta həyatlarını təhlükəyə atmasına səbəb olur.

Bu günə qədər aparılan bir çox araşdırma göstərir ki, kişilər müxtəlif səbəblərə görə müntəzəm həkim qəbulundan qaçırlar. Nümunə olaraq Klivlend Klinikasının 500 kişinin iştirak etdiyi araşdırmanı götürək. Respondentlərin 60%-i müntəzəm olaraq həkimə getməkdən qəti şəkildə imtina edir.

Bir çox məşğuliyyətə saatlar sərf edən və 6 ayda 90 dəqiqə çəkəcək həkim ziyarətlərini gecikdirən kişilər, hər hansı ciddi xəstəlikləri olanda təbii olaraq bunu çox gec dərk edirlər. Bu,



müalicəni çətinləşdirir və daha uzun yaşamaq üçün tədbirlər görmək bir az gecdir.

Bildiyiniz kimi, həm kişilər, həm də qadınlar ikiqat xromosomlara malikdir. Qadınlarda iki X xromosomu, kişilərdə isə X və Y xromosomları var. Qadınların iki X xromosomu olduğu üçün onların DNT-lərində hər genin sağlam bir nüsxəsi var. Beləliklə, hər hansı bir gendə problem varsa, onu ehtiyat nüsxə ilə əvəz edə bilərlər.

Kişilər üçün vəziyyət bir qədər fərqlidir. Onların hər birində yalnız bir X və Y xromosomu olduğu üçün "daha sağlam gen" nüsxəsi ola bilməz. Əlavələrin olmaması səbəbindən onların hüceyrələri qadınlara nisbətən daha çox zədələnir, bu da onları daha ciddi xəstəliklərə məruz qoymaq potensialına malikdir.

Qadınlar həyatları boyu "gənclik suyu" adlanan estrogen hormonundan faydalanırlar. Bədəndə antioksidant funksiyasını yerinə yetirən bu hormon, hüceyrələrə zərər verən zərərli kimyəvi maddələri təmizləyərkən, pis xolesterini azaldaraq, yaxşı xolesterini artırır və infarkt riskini azaldır.

Kişilərdə olan testosteron qısa müddətdə bədəni daha güclü etsə də, uzun müddətdə kişilərin daha az yaşamasına səbəb olur. Bu hormon pis xolesterini artırmaqla yanaşı, yaxşı xolesterini də azaldır.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

Nothingham Universitetinin alimləri də daxil olmaqla bu günə qədər aparılan bir çox araşdırma kişilərin qadınlardan daha çox intihara meylli olduğunu göstərir.

Dünyanın bütün ölkələrində, inkişaf səviyyəsindən asılı olmayaraq, kişilərin ömrü qadınlardan daha qısadır. Bu İsveçdən Afrikaya qədər belədir

Cinsiyyətə görə olmasa da, kişilər arasında ürək-damar xəstəlikləri, ağciyər xəs-



tələri, metabolik sindrom, ağciyər-kolonsidik kisəsi xərçəngləri daha çox rast gəlinir.

Müntəzəm olaraq idman etmək və sağlam qidalanmaya diqqət yetirməklə, ürək-damar xəstəlikləri və metabolik sindrom kimi xəstəliklərin yaranma ehtimalını azalda bilərsiniz. Bu cür həyat tərzi dəyişiklikləri kişi cinsi sağlamlığına da çox müsbət təsir göstərir.

Azərbaycanda 90 yaşına çatmış insan uzunömürlü hesab edilir. Dünya üzrə bu yaş həddi 100-dür. Azərbaycanda uzunömürlülərə xüsusilə dağlıq rayonlarda rast gəlinir. Əsasən Talış bölgəsində, İsmayıllı, Tovuz, Gədəbəy, Quba, rayonlarında üstünlük təşkil edirlər. Azərbaycanın ən uzunömürlü sakini Ginnesin rekordlar kitabına daxil edilən Şirəli Müslümovdur və o, 168 il yaşayıb.

Azərbaycanın 2018-ci ildə ən uzunömürlü (yəni yaşı verifikasiya olunmuş) sakini Lənkəranın Gərmətük kəndində yaşayan 108 yaşlı Vəsmə Məmmədovadır.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib:

**Həkim infeksionist Xatirə Əliyeva:** "Qadınların uzun ömür sürməsi kişilərlə müqayisədə onların sağlam həyat tərzləri, yaşaması ilə deyil, orqanizmlərində qocalmanı ləngidən əlavə gen sürətinin olması ilə əlaqələndirilir. Ümumdünya Səhiyyə Təşkilatı-



nın verdiyi statistikaya əsasən hal-hazırda insanların yaşama ömrü 71 yaşdır. Dünya ölkələri üzrə qadınların yaşama müddəti 73 il, kişilərinki isə 68 il təşkil edir. Bu tendensiyanın yəni, qadınların kişilərə nisbətən daha uzunömürlü olmasını antropoloqlar ictimai icma quruluşunda yaşamış xalqlar arasında da müşahidə olunduğunu müəyyən etmişlər.

Ənənəvi olaraq kişilərin az yaşamasını onların qeyri-sağlam həyat tərzi sürməsi, kökəlmə, alkoqol, tütün, narkotik vasitələrə meylli olması ilə əlaqələndirmişlər. Lakin Kaliforniya institutunun alimləri Deno Dubl və onun həmkarları qadınların və kişilərin çox yaşamasının səbəbini sosial şəraitlə deyil, genetika ilə əlaqəli olduğunu qeyd etmişlər.

İnsan genetik tədqiqat obyekti kimi çox böyük spesifikliyə malikdir. Bu o deməkdir ki, insanın irsiyyəti onda baş verən dəyişiklikləri öyrənmək çox çətindir. Son zamanlar insan genetikası xeyli inkişaf etmişdir. 1956-cı ildə dəqiq müəyyən edildi ki, insanın hüceyrəsində xromosomların diploiq sayı 46-dır. Xromosomların quruluşunun tətbiqi 20-ci əsrin 60-cı illərindən başlayaraq öyrənilmişdir. İnsanın normal kariotipi 22 cüt autoson və bir cüt cinsiyyət xromosomlarından yəni, kişilərdə XY, qadınlarda isə XX xromosomlarından ibarətdir.

Deno Dubl və onun həmkarları tədqiqat apararkən müəyyən etdilər ki, Y kişi xromosomları həyati əhəmiyyətli genlərdən məhrumdur. Qadın X xromosomları isə həm zəif, həm də güclü cins üçün həyati əhəmiyyətlidir.

XY xromosomları beyin və digər orqanların işində həm struktur, həm də fəaliyyət baxımından böyük əhəmiyyətləri vardır və bu tədqiqatlar nəticəsində belə bir nəticə alındı ki, qadınların uzunömürlü olmalarının səbəbi onlarda X xromosomlarının olması ilə əlaqədardır".

# Kişilər niyə qadınlardan az yaşayır



**Psixoloq Zeynəb Eyyubova:** "Belə bir deyim var ki, kişilər qadınlardan az yaşayır.



Amma bu tam olaraq da belə düşünülməməlidir. Sadəcə qadınlar daha dözümlü olduğu üçün, hadisələri daha rahat baxdığı üçün bu belədir.

Qadınlar dərdini danışarkən rahatlayır, kişilər isə problemi həll etmək üçün çalışır. Kişilər daha çox narahat olur. Buna görə də qadınların ömrü daha uzundur.

Onu da qeyd edim ki, kişilər sağlamlıqları ilə məşğul olmur, həkimə nadir hallarda üz tuturlar. Əksər qadınlarda isə bu belə deyil".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Əvvəla birmənalı olaraq hökm vermək ki, kişilər qadınlardan az yaşayır, biraz tələsiklik olar. Statistika göstərir ki, müəyyən yaşdan sonra kişilərin sayı azdır, nəinki qadınların. Amma bu o demək deyil ki, əsas faktor onların cinsi ilə bağlıdır ki, onlar kişidir ona görə az yaşayırlar.

Bir çox şeylər onların həyat tərzi ilə bağlıdır. Kişilər daha çox deyək ki, yol qəza hadisələrində tez ölürlər. Çünki onlar yollarda daha çox olurlar. Yəni, orada kişilərin sayı çox ola bilir. Müharibələrdə ölürlər, xarakterlərinə görə kişilər daha çox dalaşırlar. Ölüm hadisələri davalara görə olur.

Digər tərəfdən müəyyən fakror var ki, o kişi cinsinin özünün müəyyən xəstəlikləri olur. Kişi cinsinə mənsub olan xəstəliklər var ki, bunlar daha tez öldürücü xüsusiyyətə malikdir. Prostatla bağlı xəstəlikləri misal göstərmək olar.

Statistikanı pozan bir məsələ də var. Məsələn, lap yaşlı qadınları götürəndə onların arasında elələri var ki, onların doğum tarixi reallığa uyğun deyil. Əvvəllər sovet vaxtında bu daha çox idi. Ötən əsrin 20-ci illərində sovet hökuməti təzə qurulanda bir çox kişilər var idi ki, cavan qızlarla evlənmişdilər. Yaşları özlərindən 40-50 olsa da, evləndiklərinin 13-14 və yaxud 20 yaşları var idi. Əhalini siyahıya almağa gələndə kişilərin bir çoxu öz arvadının yaşını 15-20 il artıq yazdırmışdılar. Bizim kənddə də belə hallar var idi. Məsələn, mənim anamın bir yaşıdı. Anamın 82 yaşı olanda onun 100 illiyini keçirdilər. Ona görə bir çox amillər burada rol oynayır.

Kişilər bir qayda olaraq daha tez əsəbiləşirlər. Qadınlarda isə biraz mülayim xarakter var. Onlar kişilər kimi tez əsəbiləşmir. O tez əsəbiləşməyin özü də xeyli xəstəlik yaradır.

Kişilər spirtli içkilərdən daha çox istifadə edirlər. Spirtli içkilər də insanın səhhətinə güclü ziyan vurur. İnsan ömür boyu ya özünü məhv edir, ya da özünün sağlamlığı, müalicəsi ilə məşğul olur.

Kişilərin yediyi qidalar arasında təhlükəli qidalar daha çoxdur. Çox vaxt heç əhəmiyyət vermirlər. Səfərdə olurlar, əllərinə nə keçdi yeyirlər. Qadınlar isə bir qayda olaraq mətbəxdə özlərinə uyğun arzu etdikləri xörəkləri hazırlayırlar. Ona görə məsələyə geniş aspektdən baxmağa ehtiyac var".

***Ayşən Vəli***



# Nə qədər başıaşağı axı...

Çox təəssüf ki, indi küçələrdə, metroda nəqliyyat marşrutlarında, parklarda, hətta evlərimizdə belə çox tez-tez bəzi başıaşağı insanlarla, xüsusilə, gənclərlə qarşılaşırıq. Başıaşağı deyərkən atamın bir vaxtlar mənə tövsiyələrini xatırlayıram: "-Qızım, qız uşağı başıaşagı olmalıdır. Küçə-bacada başıaşagı gəzib-dolanmalıdır. Başıaşagı deyəndə, ta demirəm ey başını sal aşağı, yoldarizdə səni maşın vursun. Başıaşağı deyəndə gözlərinin nəzərlərini aşağı dikməlisən. Qız nədir, küçədə o yanabu yana boylandı nədir " Bu cür tövsiyələri tək mənim atam yox, bütün atalar övladlarına məsləhət bilirdilər. İndi də bilirlər. Eşidən eşidir, eşitməyən də ki... Allah onlara rəhmət eləsin, qızıldan qiymətli kəlamlarını yaddan çıxarmaqmı olar, unutmaqmı olar? Bir kəlmə sözləri ilə minilliklərə söykənən Azərbaycan ailəsinin xarakterini, mentalitetini açır, kimliyini təsdiq edirdilər.

Bu günlər həmin başıaşağıları görərkən atamın sözləri yadıma düşür. Lakin o başıaşağılıqla bu başıaşağılıq arasında o qədər fərq var ki Birincisi indi haqqında söhbət açacağım əksər gənclərin tək qız qismi deyil, oğlan qismi də "başıaşağı"dır. İkincisi ortada bizə tövsiyə olunan başıaşağılıqdan əsər-əlamət yoxdur. Burada söhbət hər yerdə qarşılaşdığımız gözləri telefonlarda, saatlarla başı yuxarı qalxmayan gənclərdən gedir. İndi tez-tez rəfiqəsi, dostu ilə yol gedərkən, piyada keçidlərini keçərkən, bütün növ marşrutlarda başlarının üstündə dayanan ahıl yaşlı insanları fərq etməyən, yol keçərkən qulağındakı qulaqcıqlarla ətrafdan əlaqəsi kəsilən, sürətlə şütüyən avtomobillərin siqnallarını eşitməyən başıaşağı gəncləri müşahidə etmək olur. Hələ uzağı demirəm, bu yaxınlarda toplaşdığımız bir qohumgildə beş-altı gəncin biz böyüklərin etdiyi söhbətə məhəl qoymadan telefonlarından başlarını qaldırmamaları məni heyrətə gətirdi. Ha baxdım, onları başıaşağı gördüm. Bir neçə saat nə bizimlə, nə də öz aralarında ünsiyyət qurmadan elə başıaşağı öz aləmlərində idilər. Elə bu yazını yazmağın stimulunu da onlar verdi mənə. Sonra müşahidələr apardım, gördüm ki, bu "başıaşağılıq" evlərimizdən sən demə çoxdan çıxmış, sarmaşıq kimi cəmiyyətə yayılmaqdadır. Mən o qohum uşaqlara iradımı bildirdim, hələ hirsləndim də. Hərçənd ki, iradlarım elə başıaşağı dinlənildi, ancaq mən onlara onurğa sütunlarında, gözlərində problemlərin yaranacağından, çox güclü şüalanmaya məruz qaldıqlarından söhbət açdım. Onlara baxdıqca, bir anlıq xatirələr məni keçmişə də götürdü. Qohum, məhəllə həmyaşıdlarımızla bir yerə toplaşanda şirin söhbətlərimizi, oxuduğumuz kitabları, izlədiyimiz filmləri paylaşdığımızı, məktəbdə, yolda gördüklərimizi bölüşdüyümüzü, aramızda vərəq üzərində ad, şəhər, film, bitki, heyvan adı yarışması apardığımızı, yarışmanı birinci bitirənin "dayanın" deyə çığırtısını xatırladım. Qulaqlarımda çağlayan o səslərlə xatirələrdən ayrıldım. Və onları qınadığım gənclərə də xatırlatdım. Gülümsündülər Ancaq başları yenə də yuxarı qalxmadı ki qalxmadı. Biz əslində o evə bir toy mərasimi öncəsi toplaşmışdıq. Əslində oradakı söhbətlərdə, məsləhətləşmələrdə gənclərin də fikirləri, təklifləri maraqlı və keçərli ola bilərdi. Lakin söhbətə qoşulan olmadı axı.

**ARAŞDIRMA**

Sonrakı müşahidələrimdə belə gənclərin sayının hədsiz olması, onların cəmiyyətdən günbəgün, saatbasaat, anbaan uzaqlaşmaları kimi düşüncələr beynimi alt-üst etdi. Metrodayam, düz yeddi gənc sayıram, "başıaşağı"dırlar. Qarşılarında neçə-neçə ahıl insan, analarının əllərini var gücü ilə sıxmış, ancaq yenə də yerindəcə çalxalanan uşaqlar Küçədəyəm, qulağında qulaqcıqlar, başıaşağı onlarla gənc, qarşılarındakı əliuşaqlı, əliəsalı insanlara çırpılırlar, üzr istəmək yerinə hələ bəzən "görmürsən?" deyə söyləyirlər. Ticarət mərkəzindəyəm, ana, yanında yəqin ki, qızıdır, başıaşağı, oğlan, yanındakı yəqin ki, dostu, qardaşıdır, başıaşağı. Qız, yanındakı yəqin rəfiqəsidir, başıaşağı. Əslində, iki nəfərin bir arada olub birinin telefonla məşğul olması, yaxud kitab, qəzet oxuması qarşısındakına hörmətsizlikdən başqa bir şey deyil. Yenə xatirələr alır məni ağuşuna, götürür keçmişə. Keçmiş deyəndə bizim gəncliyimizin təsadüf elədiyi 1990-cı illərə. Metroda, marşrut avtobuslarda əyləşməyimizlə qalxmağımız bir olardı, böyüklərə yer verərdik, yaşlı insanların çantalarını daşıyar, yolu keçirərdik, uşaqlılara yardım edərdik. İndi də belə gənclər çoxdur, müşahidə edirik, lakin bütün günü ən azından sağlamlıgını fikirləşməyib gözlərini telefondan ayırmayan gənclərimizin sayı daha artıqdır. Hər gün rastlaşdığım bu mənzərələr, artıq vərdiş halını almış bu hallar məni çox düşündürür və narahat edir. Saysız suallar beynimdə bir-birini əvəzləyir: bu alışqanlığa necə son qoyaq? Gənclərimi sağlamlıqlarına zərər verən bu vərdişlərdən necə çəkindirək? Onların ətrafdan təcridinə necə göz yumaq?

Düzdür, internet əsrində yaşayırıq. Texniki tərəqqi özünün ən yüksək pilləsindədir. Sosial şəbəkələrlə bir andaca dünyaya çıxmaq olur. Lakin bu, o demək deyil ki, biz elə həyatımızı internetə köçürək, ötən zamanımızı gələn zamanımıza qurban verək. İnternet, sosial şəbəkələr o zaman əlverişlidir ki, ondan qədərində istifadə olunsun. İfrat istifadə ancaq həyatımızda yeni-yeni problemlərin yaranmasına yol aça bilər. Elə açır da. Əvvəl sağlamlığımız əldən gedir, sonra yuxarıda sadaladığım hərəkətlərlə mentalitetimizə zərbə endirmiş olaruq, daha sonra isə valideynövlad, bacı-qardaş, ər-arvad, qayınana-gəlin münasibətləri məhv olur. Bütün bunlara görə gəlin sosial şəbəkələrdən istifadə üçün günün hansısa saatlarında vaxt ayırıb başımızı yuxarı qaldıraq. Ətrafımızdakılara diqqət göstərib, qayğı bəsləyək. Bu günün gənci sabahın ata-anasıdır, həyat yoldaşıdır, evlərdə gəlindir. Bu gün ətrafınıza sərgilədiyiniz laqeydliyi sabah ailələrimizə daşıya bilərsiniz. Qaldırın başınızı, əziz gənclər, cəmiyyətə baxın, tanış olun, yaxşıları əxz edin, pisləri tənqid edib cəmiyyətə yol açmasına, yox, deyin. Qaldırın başınızı, gələcəyimiz, mentalitetimiz naminə,

P.S. Mövzu ilə bağlı müşahidələrimdə gənclərlə yanaşı, müxtəlif yaş qruplarında olan qadın və kişilərin də başıaşağı halı nəzərimdən qaçmadı. Bu barədə gələcək yazılarımda bəhs edəcəyəm. Lakin hələlik onlara bir sualım var: bu hərəkətlərinizləmi gənclərə örnək olursunuz?

***Mətanət MƏMMƏDOVA***

## "Ermənistanda ciddi qarşıdurmalar ola bilər"

"Hazırda Ermənistanda siyasi gərginlik var. Müdafiə Nazirliyinin Baş Qərargah rəisi işindən azad edilib, yerinə isə onun müavini təyin olunub". Bunu SİA-ya açıqlamasında politoloq Teymur Qasımlı bildirib.

Onun sözlərinə görə, Ermənistanda ağır hərbi-siyasi problemlərlə yanaşı, iqtisadi tənəzzül daxildə ciddi qarşıdurmaların yaranmasına gətirib çıxaracaq: "Ermənistanda ağır ictimai-siyasi vəziyyət və Paşinyana qarşı üsyançı tərəflərin fəallaşması nəticə etibarı ilə onun hakimiyyətdən getməsinə gətirib çıxara bilər. Ümumilikdə bütün daxili gərginliklər onun ziyanına işləyə bilər. Müxtəlif terrorçu təşkilatlardan maddi və mənəvi dəstək alan Koçaryan və Sarkisyan Paşinyana qarşı mübarizə



aparırlar. Qısası Ermənistandakı gərginlik artmaqda davam edəcək və ən azı yaxın vaxtlarda bu gərginliyin zəifləyəcəyini ehtimal etmirəm".

***Gülyana***

## Üçüncü Dünya Müharibəsi başlayır?

"Ukrayna-Rusiya müharibəsi gözlənildiyindən daha geniş miqyas aldı. Zaman baxımından da Rusiya tərəfindən belə fikirlər səslənirdi ki, Rusiya ordusu bir neçə günə gedib Kiyevə çatacaq. Lakin gözlənildiyindən fərqli olaraq Rusiya ordusu ciddi müqavimətlə üzləşib". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə, Ukrayna prezidenti Zelenski bu qarşıdurmanı artıq vətən müharibəsi adlandırıb: "Dünya müharibəsinə gəldikdə isə Rusiyanın Qərb ilə qarşıdurmasını diplomatik və iqtisadi zəmində artıq dünya müharibəsi adlandırmaq mümkündür. Təbii ki, ağır sanksiyalar qarşılığında Rusiya Ukrayna və Qərbi nüvə silahı ilə hədələyir. Qərb isə qəti şəkildə Rusiya ilə hərbi qarşıdurmadan çəkinməyə çalışır. Çünki bunun ağır nəticələrini hesablayır. Qərb artıq müharibələrdən yorulmuş bir cəmiyyətdir. Ona görə də hər hansı qarşıdurmanın əleyhinədir. Məhz bu səbəbdən Rusiyaya bəhanə verməmək üçün NATO-nun baş katibi, ABŞ və Avropa rəsmiləri dəfələrlə rəsmi bəyanatlarında Ukraynaya ordu göndərməyəcəklərini, yalnız humanitar, maliyyə və silah dəstəyi verəcəklərini açıqlayıblar.

Bu gün ABŞ da Rusiya ilə hərbi qarşıdurmadan çəkinir. Qərb maksimum şəkildə çalışır ki, Rusiyanı iqtisadi yolla daxildən zəiflətsin. Lakin bir məsələ var ki, biz hazırda Ukraynada davam edən müharibənin nə ilə nəticələnəcəyini dəqiq bilmirik. Əgər, Rusiya Ukraynada istədiyinə nail ola bilməsə, ağır sanksiyalar öz effektini



verməyə başlasa, bunun qarşılığında Rusiya hərbi baxımdan ağlasığmaz addım ata bilər. Bundan da bu gün narahat olan ən çox Avropa ölkələridir. Çünki ilk zərbəni məhz onlar hiss edəcəklər. Beləliklə, Qərb ilə Rusiya arasında siyasi-iqtisadi zəmində başlanan dünya müharibəsi istənilən bir anda maraqlı qüvvələr tərəfindən hərb meydanına da daşına bilər".

***Arzu Qurbanzadə***

# Paşinyan ağıllanır, yoxsa..?







## Və ya Ermənistanın baş nazirinin davranış və bəyanatları niyə bir-birinin əksini göstərir?

ANALİTİK

Ermənistanın 44 günlük müharibədə aldığı məğlubiyyət və 2020-ci ilin 10 noyabr tarixində imzalanan üçtərəfli bəyanatın ardınca ictimai rəy sonrakı proseslərin öz axarında gedəcəyini düşündü və belə bir nəticəyə gəlindi ki, bəyanatdakı bənd və müddəaların müqabilində qalib dövlətin kapitulyasiyaya uğrayan tərəfə qarşı irəli sürülən tələbləri və şərtləri zamanında yerinə yetirilsə, böyük sülh sazişinin imzalanması müddəti tez bir vaxtda həyata keçirilə bilər. Yeni nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılması, Rusiya sülhməramlıları kontingentinin müvəqqəti məsul olunduqları ərazilərdə qanunsuz erməni silahlılarının öz mövqelərini tərk etmələri, habelə bu ərazilərdə faktiki olaraq Azərbaycanın qanunlarının bərpa olunması məsələsinin qısa müddətdə realizə olunması gözlənilirdi. Amma...

### Ona görə də bütün bu kimi çatışmazlıqların aradan qaldırılması tələbləri günü-gündən artır!

Amma sonrakı müddətdə biz nəinki Ermənistanın imzaladığı kapitulyasiya sənədindəki şərtlərə əməl etmədiyini müşahidə etdik, eləcə də, həm Ermənistandan, həm də separatçı-quldur rejim tərəfindən mövqelərimizin atəşə tutulmasını, üstəlik, terror aksiyaları törətmək cəhdlərini gördük. Təbii ki, bu, belə davam edə bilməzdi və əvvəl-axır həmin tör-töküntülərin qarşısının alınması istiqamətində cavab tədbirlərinin görülməsi tələbi yaranırdı.

Əbəs deyil ki, hər belə cəhdlərdə qarşı tərəf kifayət qədər çox itkilər verərək geri çəkilirlər, amma təəssüf ki, müharibədən sonra bizim də tərəfimizdən də şəhidlərimiz, yaralılarımız olur. Bu baxımdan, belə vəziyyətin davam edilə bilinməyəcəyi artıq göz önündədir.

Eyni zamanda, bu məqamda Rusiya sülhməramlıları kontingentinin vasitəçi olmalarına rəğmən, bir sıra hallarda suveren ərazilərimizdə törədilən qanunsuzluqlara göz yummaları, hətta bəzi hallarda hərbi, yaxud müharibəyə hazırlıq məqsədli istehkamların qurulmasını, səngərlərin qazılmasını müşahidə etməsi, həmin qanunsuzluqlara göz yumması Azərbaycan xalqının və dövlətinin hiddətlənməsinə səbəb olurdu. Ona görə də bütün bu kimi çatışmazlıqların aradan qaldırılması tələbləri günü-gündən artır!

### Gah Qarabağın "statusundan", gah da sülh sazişindən dəm vuraraq var-gəl edən Paşinyanın təəccüblü davranışları

Yeri gəlmişkən, bu kimi məsələlər mənzərəsində Ermənistanın baş naziri Nikol Paşinyanın da davranışları, məğzlərini tez-tez dəyişən bəyanatları da suallar doğurmağa başladıb. Gah Qarabağın "statusu" ətrafında var-gəl edən Paşinyanın digər yandan Azərbaycanla sülh danışıqlarına gedilməsi vacibliyindən, sərhədlərin delimitasiyası və demarkasiyasından danışması, bənzər bəyanatlardan sonra isə Ermənistan ərazisindən Azərbaycanın sərhədyanı rayonlarını atəşə tutulması təəccüb doğurur.

Bu arada, daha bir məqamı da xatırlarmaq yerinə düşərdi. Paşinyan bir neçə dəfə işğaldan azad edilmiş ərazilərimizi qondarma erməni "toponimləri" ilə deyil, məhz tarixi Azərbaycan adları ilə səsləndirib. Əslində isə, onun hərdəmxəyallığı həm təəccüb, həm də maraq doğurur. Misal üçün, bugünlərdə parlamentdəki çıxışı zamanı Paşinyan deyib: "Mən tribunaya yaxınlaşmazdım. Amma siz bu sualla israr edirsiniz ki, biz "Arsax"ın 75%-ni düşmənə vermişik".

Yeni Nikol Paşinyan müxalif partiya üzvlərinə səslənərkən deyib. O, "Emənistan" və "Şərəfim var" partiyalarının parlament təmsilçilərindən Qubadlı rayonunun rəsmi adının Qubadlı və ya "Sanasar" olduğunu deməklərini tələb edib. Daha dəqiq desək, sual edib ki, onlar bu ərazinin toponimini Qubadlı kimi görürlər yoxsa "Sanasar" kimi? SİTAT: "Əgər bu rayonun adı "Sanasardırsa", onda niyə sizin rəhbərləriniz 20 il ərzində həmin əraziləri Azərbaycana qaytarmaq üçün danışıqlar aparıb? Bu proses gizli olmayıb. Onların da qəbul etdiyi Madrid prinsiplərinin birinci bəndində yazılıb ki, 7 rayon Azərbaycana qaytarılsın", deyə o bildirib.

### Erməni baş naziri ikibaşlı oyunbazlıqla məşğuldur?

Məhz bu kimi davranışların ardınca Ermənistan silahlı qüvvələrinin təmas xətlərində Azərbaycan mövqelərinə atəş açmaları Paşinyanın ikibaşlı oyunbazlıqla məşğul olduğunu göstərir. O, bir tərəfdən ehtiyat tədbiri görməklə Bakının, həmçinin beynəlxalq aləmin qarşısında özünü "dürüst" kimi təqdim etməyə cəhd göstərir, başqa tərəfdən isə erməni ictimaiyyətinin revanşistlər qruplarının qarşısında özünə haqq qazandırmağa çalışır. Lakin ikibaşlı oyunbazlıqların ona hər hansı siyasi dividend gətirəcəyini də düşnmək olmaz.

Belə ki, artıq 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatının üzərindən 1 il 4 aya yaxın vaxt keçib, yerdə qalan 3 il 8 ayda qarşıya qoyulmayan tələblər yerinə yetirilməzsə, demək, bu oyunbaz şəxs artıq öz aqibəti barədə düşünməli olacaq.

### Paşinyanın gah sülh sazişi barədə anonslar verməsi, gah da tamamilə əks tərəfdən davranması yuxarıda qeyd edilən bir faktoru və sualı aktuallaşdırır - nə zamana qədər?

Təbii ki, bütün bunların müqabilində yerdə qalan müddətdə də işlər görülməzsə, hətta daha qısa zamanda Paşinyanın türklər demiş icabına baxıla bilər. Əslində, buna da səbəblər var. Paşinyan Qarabağdakı separatçı rejimə Ermənistanın büdcəsindən vəsaitlər ayırır. Qarabağdakı separatçı rejim Xocalıda, Ağdərədə, Xocavəndin bir hissəsində və s. sülhməramlıların yerləşdikləri ərazilərdə yolla çəkir, çoxmənzilli evlər tikir, kiçik qəsəbələr salır və s. Xankəndi və ətraf ərazilərdə separatçıların əski parçaları dalğalanır, polis və hərbçiləri yerləşir, Ermənistandan bu ərazilərə gizli yolla hərbçilər gətirilir və onlar həqiqi hərbi xidmətçilər kimi qeydə alınırlar. Bir sıra xarici ölkələrin təmsilçiləri Ermənistan ərazisindən Laçın dəhlizi vasitəsi ilə Xankəndiyə gedirlər, səfərlər edirlər. Bütün bunlar isə bilavasitə Azərbaycanın suveren ərazilərində qanunsuz şəkildə cərəyan edir.

Nəticədə, Paşinyanın gah sülh sazişi barədə anonslar verməsi, gah da tamamilə əks tərəfdən davranması yuxarıda qeyd edilən bir faktoru və sualı aktuallaşdırır - nə zamana qədər? Ümid edirik ki, çox yaxın vaxtlarda bax həmin bu sualın cavabı veriləcək. Özü də Ermənistanın hərdəmxəyal baş naziri tərəfindən deyil, Azərbaycan dövləti və xalqı tərəfindən!

*Rövşən RƏSULOV*

# Roman Qazenko:

## “Qarşılıqlı sanksiyalar Rusiya və Avropaya ciddi iqtisadi zərər vuracaq”

### "Azərbaycanın və Türkiyənin mövqeyi nümunəvidir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



***ABŞ və Aİ sanksiyaları artıq Rusiya iqtisadiyyatına təsir edir. Bu, kütləvi sistem zərbəsidir, əvvəllər elan edilmiş idxalı əvəzləmə obyektinə çevrilməyən sənaye sahələri real təhlükə altındadır. SİA xəbər verir ki, bu fikirləri rusiyalı siyasi ekspert Roman Qazenko ”Caliber” analitik mərkəzinə müsahibəsində ABŞ və Aİ-nin tətbiq etdiyi sanksiyaların Rusiya iqtisadiyyatı üçün mənfi nəticələrini şərh edərkən deyib.***




”ABŞ və Aİ sanksiyaları Rusiyanın idxalı əvəzləmə proqramının iflasa uğradığını ortaya qoydu. İlk növbədə, biz aviasiya sənayesindən danışırıq və indi bunun bəhrəsini görürük. Bundan əlavə, istənilən halda media məkanı zərər görəcək. Mən Rusiya mediasına təsir edən sanksiyaları nəzərdə tuturam, bu, onların Rusiya gündəmini irəli aparmaq imkanlarına aiddir. Yaxşı, o zaman Rusiya əhalisi, görünür, çox yaxında vərdiş etdikləri sosial şəbəkələrin Rusiyaya qarşı cavab sanksiyaları kimi fəaliyyətini dayandıracağı şəraitdə alternativ tapıcaq.

Amma situasiyaya daha geniş analitik kontekstdə baxmaq lazımdır və burada müəyyən bir super subyektin əli ilə Avropa iqtisadiyyatını məhv etmək tendensiyası özünü büruzə verir. Mən sizə bir nümunə verim. Avropa lizinq şirkətlərinə icarəyə götürülmüş təyyarələri geri çağırmaq və Rusiyaya yeni təyyarələrin tədarükünü dayandırmaq tapşırılıb. Amerika şirkətləri, bu halda ”Boeing” tamamilə açıq bazar əldə edir. Beləliklə, biz indiki vəziyyətin, ilk növbədə, Avropa iqtisadiyyatına qarşı necə istifadə edildiyini görürük. Buradan çox ciddi nəticə çıxarmaq olar: indiki müharibənin mahiyyəti nədir? Bəs onun təşkilinin əsas obyekti kimdir? Bu problemə itələnən təkcə Ukrayna və Rusiya deyil, ilk növbədə, Avropa və Avropa iqtisadiyyatıdır. Döyüşlər başlamazdan əvvəl də Almaniyada, ilk növbədə, enerji qiymətləri yüksəldi və hər hansı bir iqtisadi universitetin tələbəsi başa düşə bilər ki, bundan sonra ümumiyyətlə hər şeyin və hər şeydən əvvəl ilkin həyatı təmin edən məhsulların qiymətləri uçacaq. Ona görə də təkcə Rusiya əhalisinin əziyyət çəkəcəyini söyləmək düzgün olmazdı. Eyni şəkildə Avropanın əhalisi də əziyyət çəkəcək. Mən əminliklə belə qənaətə gələ bilərəm ki, həm Avropaya inteqrasiya, həm də Avropa iqtisadiyyatı indi sənayesizləşdirmənin son mərhələsinə qədəm qoyur. Bunun ardınca sosial və siyasi çöküş gələcək”, - rusiyalı ekspert hesab edir.

Eyni zamanda, Roman Qazenkonun fikrincə, Rusiyanın Aİİ-dəki tərəfdaş ölkələri Rusiyanın iqtisadi imkanlarından çox asılı olduqları üçün qərbin sanksiyalarını hiss edəcəklər.

”Lakin istənilən böhran yeni imkanlar yaratdığı kimi, problemi də üzə çıxarır. Aİİ üzvləri indi müəyyən dərəcədə Azərbaycandan nümunə götürməyə və bütün hazırkı qlobal iqtisadi siyasi sistemin dağılması fonunda mövcud ziddiyyətlər üzərində yeni ittifaqlar yaratmağa məcbur olacaqlar. Bu halda mən superpozisiya deyilən yeri tutan Azərbaycan və Türkiyəni misal çəkə bilərəm. Yəni, anlıq taktiki qiymətləndirmələrdən- kim yaxşıdır, kim pis, kim haqlıdır, kim haqsızdır- yuxarı qalxan strateji mövqe. Bu, bütün ənənəvi ittifaqların, ittifaqların, münasibətlər modellərinin indi gözümüzün qabağında dağılmasına dair aydın fikrə əsaslanan strateji hədəflərin müəyyənləşdirilməsinin nümunəsidir. Subyekt-obyekt münasibətlərinin olmadığı, biri götürəndə, o biri verəndə həmrəylik tərəfdaşlığı əsasında əlaqələr qurmaq lazımdır. İndi düşmənçilik üzərində deyil, tərəfdaşlıq üzərində potensial yaratmaq vaxtıdır. Fayda qarşılıqlı olmalıdır.

Bu optikada Azərbaycan rəhbərliyinin strateji davranışının nadir nümunəsi, həmçinin Türkiyə nümunəsi mövcud ziddiyyətlər, münaqişələr və fəlakətlər üzərində ortaq gələcək qurmağa hazır olduqlarını göstərir. Bu, Aİİ ölkələri üçün nümunə olmalıdır. Rusiyanın pul kisəsindən, hərbi gücündən lütf gözləməyin, Rusiyaya qarşı tətbiq olunacaq sanksiyaların nəticələrini əks etdirməyin, əksinə, ittifaq və ittifaqlar yaratmaq potensialını, potensial əlavələr əsasında onların əlaqələrini toplayın. Birlikdə həmişə daha sərfəli olur, mövcud qlobal iqtisadi modellərin dağılması unikal imkanlar yaradır, lakin yalnız bərabər qarşılıqlı əlaqə əsasında. İndiki münasibətlərdə subyekt, yəni indiki şəraitdən güclü olan dövlət ancaq tərəfdaşlığa çevrilə bilər.

Qərbin Rusiyaya qarşı Azərbaycan və Türkiyəyə qarşı sanksiyaları hər halda onların siyasətini müəyyən edən amil deyil, bu ölkələr strateji gələcək qururlar. Xarici təsiri əks etdirən refleks siyasəti ilə öz proqramı üzrə işləyən subyektiv mövqe arasında fərq var. Bu fundamental fərqdir. Refleks siyasətini misal çəkəcəyəm, onlar bir faktora reaksiya verirlər, lakin bütün sistemi bütövlükdə görmürlər. Eynilə Rusiyada Türkiyənin Ukraynaya ”Bayraktar” pilotsuz uçan aparatlarını satması ilə bağlı nə qədər qısqanclıq olduğunu xatırlayaq. Amma eyni zamanda, nədənsə, heç kim diqqət yetirmədi ki, həmin pilotsuz təyyarələr Aİİ ölkəsinə- Rusiya hərbi bazasının yerləşdiyi Qırğızıstana da satılıb. Rusiya isə Türkiyəyə- NATO ölkəsinə, Suriyaya və istənilən yerə silah verir. Bu, subyektiv siyasətdir. Amma birdən-birə refleks olaraq Türkiyəni yalnız bununla ittiham etməyə başladılar.



Dünyanın belə qeyri-adekvat mənzərəsi qeyri-adekvat reaksiyaya gətirib çıxarır və buna görə də intihardır. İndiki vəziyyətdə uduzan tərəf kontinental Avropadır. İstənilən halda Rusiya beynəlxalq hüquq münasibətlərinin indi dağılan bütün nəticələrini alacaq. Polşa Rusiyanın əmlakına həbs qoyub, Rusiyanın aktivləri artıq dondurulub, beynəlxalq hüquq fəaliyyətini dayandırıb. Burada kimin haqlı, kimin haqsız olduğunu söyləmək çətindir, əslində vəziyyət çoxdan buna doğru gedir. Və bu müharibəni ilk kimin başlatması sualı indi əsaslı deyil. Artıq qanun deyil, yalnız güc qanununun işlədiyi bütün qlobal strukturun ümumi sisteminin məhv edilməsinin şahidi oluruq. Yenə deyirəm, bu vəziyyətdə tək güclü ola bilməzsən. Artıq müəyyən etmək lazımdır.




Məsələn, Amerika prezidenti Co Bayden Ukrayna ilə müharibənin Rusiyanı zəiflədəcəyini və dünyanın qalan hissəsini gücləndirəcəyini söyləyərək arzusunu reallıq kimi göstərməyə çalışır. Bəs cənab Bayden Çini hara qoyacaq?

Çin artıq beynəlxalq münasibətlərin çökdüyü bu sistemdə ordusunun bütün gücü ilə Tayvanı hədəfə alıb və bu prosesə ilkin Rusiyanın başlamasından əmin-amanlıqla istifadə edəcək. Digər tərəfdən, ABŞ-ın Avropaya qarşı uzunmüddətli iqtisadi müharibəsi heç yerdə itməyib. Mən heç bir şəkildə rusiyapərəst mövqe tutmuram və ya əksinə, sadəcə Baydenin bəyanatını şərh edirəm. Bu, Amerika prezidentinin, necə deyərlər, zooparkda Çin Xalq Respublikası adlı fili görmədiyi haldır.

Tutaq ki, ABŞ-Çin münasibətlərində müəyyən qədər çəkindirici rol oynayan Rusiya olmayacaq və o zaman Vaşinqton başqa bir supergüclə üz-üzə gələcək. Bu, strateji baxımdan başa düşülməlidir və çox yaxında başlayacaq. Ümumiyyətlə, Rusiya və Çinin əslində ”bir komandada” olması ilə bağlı fərziyyələr kifayət qədər özbaşınadır. Çünki Çin bu münaqişədə bitərəf mövqe tutan dövlətdir ki, bu da Çinin yalnız milli maraqlarının müdafiə edəcəyi anlamına gəlir. İndi Çin və Rusiyanın maraqları üst-üstə düşür. Amma bu, indi belədir. Çin isə sadəcə olaraq sanksiyalardan qorxmur”, - Qazenko davam edib.

Ekspert daha sonra qeyd edib ki, mövcud vəziyyət Karib böhranının parametrlərini çoxdan üstələyib və bu gün bununla bağlı müxtəlif versiyalar mövcuddur.

”Karib böhranı nüvə silahının, daha dəqiq desək, nüvə silahının çatdırılması üçün effektiv vasitələrin mövcudluğunun böyük müharibəni qeyri-mümkün etdiyi bir vaxta gəldi. Kissincerin vaxtında xəbərdarlıq etdiyi kimi, indi müəyyən dərəcədə dünya 20-ci əsrin ortalarına, hətta başlanğıcına da qayıtmışdır. O, əmin idi ki, böyük dövlətlər ağıllı olmasalar, Birinci Dünya Müharibəsi ərəfəsində mövqelərə düşəcəklər. Yenə də Karib böhranı heç bir atəş açılmadan danışıqlar yolu ilə həll edildi və kompromis yolu ilə aradan qaldırıldı. Amma unutmaq olmaz ki, heç bir xarici siyasət kompromis uzun sürmür. Bu sahədə kompromis pası boyamağa bənzəyir, gec-tez istənilən kompromis pozulur. Təəssüf ki, hazırkı vəziyyət açıq münaqişə parametrlərinə daxil olub və hərbi əməliyyatların başlanmasından sonra aparılan danışıqlar adətən öz səmərəsizliyini göstərir”, - deyə Roman Qazenko yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
4 mart
2022-ci il

# "Messini pula görə göndərdilər!"

## ŞOK AÇIQLAMA:

***"Barselona"nın sabiq baş məşqçisi Ronald Kuman Lionel Messinin ötən yay Kataloniya klubundana yrılaraq PSJ-yə keçməsi barədə danışıb. Qol.az xəbər verir ki, 58 yaşlı mütəxəssis "Mundo Deportivo"ya açıqlamasında deyib:***

"Rəhbərlik təkid etdi ki, bəzi futbolçular komandadan göndərilsin. Dedilər ki, maliyyəni qaydaya salmaq lazımdır. Lionel Messi ilə maaş probleminə görə yolları ayırdılar. Amma o gedəndən az sonra 55 milyon avroya kimisə satın aldıqlarını gördüm. Bu həqiqətən qəribədir. Görəsən, klubda başqa bir şey olubmu? Messi niyə getməli oldu?"

Qeyd edək ki, Messi PSJ ilə 2+1 illik müqavilə imzalayıb. "Barselona" isə Messi ilə yolları ayırandan sonra 55 milyon avroya "Mançester Siti"dən Ferran Torresi heyətinə qatıb.



# Gənc ailələr

## ipoteka kreditindən niyə istifadə edə bilmir?

**"Azərbaycanda gənc ailələrin mənzil təminatının həll edilməsi prioritet məsələlərdəndir. Nəzərə alsaq ki, Güzəştli Mənzil Fondu formalaşıb və kifayət qədər uğurla həyata keçirilir. Gənc ailələr elektron sistemdən istifadə etməklə güzəştli mənzillərə sahib ola bilirlər. Bu da həmin vətəndaşların güzəştli mənzil probleminin həlli baxımından vacibdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert, deputat Vüqar Bayramov deyib.**

Onun sözlərinə görə, mənzil əldə etməyin digər yollarından biri də ipoteka kreditləşməsidir: "Qiymətləndirmələr göstərir ki, güzəştli maddi ipoteka məsələsində dəyişikliklərin edilməsi daha məqsədəuyğun olardı. Xüsusən də güzəştli ipoteka kreditlərinin ilkin ödənişin azaldılması və bir sıra hallarda ilkin ödənişə subsidiyanın verilməsi daha yaxşıdır". Deputat sözlərinə belə davam edib: "Nəzərə alsaq ki, gənc ailələrin bir qismi ilkin ödənişə görə güzəştli ipotekadan istifadə edə bilmirlər. İpoteka kreditləri üzrə faiz dərəcələrinə baxılması və 4 faidən 2 faizə endirilməsi yaxşı olar".

***Ayşən Vəli***



# Dölün inkişafı üçün bu addımlar mütləq atılmalıdır?

## VACİB MƏQAMLAR

"Hamiləlikdə qidalanmanın rolunun olması təbiidir. Çünki ana bətnində mayalanmadan tutmuş, son dövrə qədər körpə ananın orqanizmindən qidalanaraq böyüyür". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib.

Onun sözlərinə görə, ana gündəlik körpəyə lazım olan vitamin və mineralları qəbul etməsə dölün də inkişafında əksiklik olacaq: "Bu mineral və vitaminlərə olan tələbat haqqında məlumat internetdə də var. Məsələn, bu vitamin və minerallar hansı qidanın tərkibində var və nə qədər yemək lazımdır kimi məlumatları bilməyimiz də vacibdir. Bu vitamin və mineralları normal olaraq ala bilmədiyimiz üçün onlardan istifadə edirik, inkişaf yaxşı getsin".

***Ayşən Vəli***



# Kişi arvadını sosial şəbəkələrdə reklam etməlidirmi?

"XXI əsrdə internetin, sosial şəbəkələrin insan münasibətlərinə müdaxiləsi böyük dəyişikliklərə gətirib çıxarıb. Şəkil və videolara fikir bildirməyə imkan verən bir çox sosial şəbəkədə həmin o dəyişikliklərə uyğun yeniliklərlə rastlaşırıq. Bir çox hallarda bu yeniliklər etirazla qarşılanır". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, insanlar Azərbaycanda sosial şəbəkələrin ilk istifadə olunduğu zamanlarda da yaşadığı yerlərlə bağlı, öz maraq dairələrinə uyğun şəkilləri və məlumatları internetə yükləyiblər: "Getdikcə də "İnstagram", "Tiktok", "Youtube" kimi video paylaşım platformaları inkişaf edərək bütün dünyanı əsarəti altına alıb. Bunun nəticəsində insanlar lazım olmasa belə öz məlumatlarını sosial şəbəkələrdə paylaşırlar. Sözsüz ki, bunun həm mənfi, həm də müsbət tərəfləri var. Müsbət tərəfi odur ki, internet resursları gələcək üçün bizim virtual elektron arxivimizdir. İndiyə kimi tariximiz, digər ölkələrlə əlaqələrimiz kitablardan öyrənilib. Gələcəkdə isə tariximiz video



və audio məlumatlar vasitəsilə araşdırıla biləcək. Bu baxımdan bugün internetə yerləşdirilən hər bir an növbəti gün üçün tarixdir. İnsanlar Azərbaycan tarixini zənginləşdirmək üçün bacardıqları qədər bu vasitələrdən istifadə etməlidir".

Yazıçı-kulturoloq sözlərinə belə davam edib: "Lakin bəzi şəxsi məlumatların, ailə məsələləri ilə bağlı informasiyaların internetdə paylaşılması mübahisəli məsələdir. Bu həmin şəxslər və ailələrinin həyatı ilə bağlı təhlükə yarada bilər. Çünki şəxsi məlumatlarının məxfiliyi dünyada ən çox qorunan məsələlərdən biridir. Bu şəxslərin sosial şəbəkələrdə övladının və ya hər hansı bir ailə üzvünün yerləşdirdiyi şəkil gələcəkdə bir çox insanlarda ona qarşı antipatiya yarada bilər. Ailələrin çoxunun dağılmasına səbəb məhz sosial şəbəkələrdə vaxtilə paylaşılan uyğunsuz şəkillər, videolar və ya canlı yayımlardır.

Amerika Birləşmiş Ştatları və bunun kimi bir çox dövlətlərdə işə götürülən zaman həmin şəxsin son 3-5 il ərzində sosial şəbəkələrdəki bütün fəaliyyəti monitorinq edilir. Buna uyğun olaraq işəgötürən tərəfindən mənfi və ya müsbət rəy verilir. Ona görə də belə məsələlərdə ehtiyatlı olmaq lazımdır. Ailələrin dağılmasına səbəb ola biləcək və ya iş həyatı ilə bağlı problem yaradacaq hər hansı bir şəklin, videonun paylaşılması həmin şəxs 18 yaşdan yuxarıdırsa onun icazəsi ilə olmalıdır".

***Ləman Əlizadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600**